**“Mərkəzi icra hakimiyyəti orqanları *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər* tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları”nın və “Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında**[1]

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Dövlət orqanlarının *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin* elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 1-ci hissəsinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Mərkəzi icra hakimiyyəti orqanları *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər* tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları” təsdiq edilsin (1 nömrəli əlavə).

2. “Elektron xidmət növlərinin Siyahısı” təsdiq edilsin (2 nömrəli əlavə).

3. Elektron xidmətlər reyestrinin operatoru funksiyalarını Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi həyata keçirir.[2]

4. Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə tapşırılsın ki:[3]

4.1. bir ay ərzində elektron xidmətlər reyestrini formalaşdırsın;

~~4.2. mərkəzi icra hakimiyyəti orqanları tərəfindən elektron xidmətlərin göstərilməsinin mərhələlərlə icra olunmasını nəzərə alaraq, bu qərarın 2-ci hissəsi ilə təsdiq edilmiş "Elektron xidmət növlərinin Siyahısı"nda zərurət yarandığı halda dəyişikliklər edilməsi barədə təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.~~[4]

5. Mərkəzi icra hakimiyyəti orqanlarına tapşırılsın ki, iki ay müddətində:

5.1. göstərilən elektron xidmətlərin elektron xidmətlər reyestrində qeydə alınmasını təmin etsinlər;

5.2. elektron xidmətlərin göstərilməsində iştirak edən əməkdaşların elektron imza ilə təmin edilməsi üçün zəruri tədbirlər görsünlər.

6. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 24 noyabr 2011-ci il
191

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**1 nömrəli əlavə**

## Mərkəzi icra hakimiyyəti orqanları *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər* tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi[5]

## QAYDALARI

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Dövlət orqanlarının *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin* elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 1-ci hissəsinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır.[6]

1.2. Bu Qaydalar mərkəzi icra hakimiyyəti orqanları *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər* tərəfindən fəaliyyətin həyata keçirilməsində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi və informasiya sistemləri vasitəsilə digər *dövlət qurumlarına*, fiziki və hüquqi şəxslərə elektron xidmətlər göstərilməsi ilə bağlı məsələləri tənzimləyir.[7]

1.3. Bu Qaydalar həmçinin mərkəzi icra hakimiyyəti orqanlarının *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin* elektron xidmətlər göstərməsində iştirak edən digər təşkilatlara da şamil edilir.

1.4. Bu Qaydalar qanunvericiliklə mühafizəsi təmin edilən informasiyaların əldə edilməsi ilə bağlı elektron xidmətlərin göstərilməsini əhatə etmir.

### 2. Əsas anlayışlar

2.1. Bu Qaydalarda aşağıdakı əsas anlayışlardan istifadə edilir:

2.1.1. **elektron xidmətlər** - mərkəzi icra hakimiyyəti orqanları *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər* tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq digər *dövlət qurumlarına*, fiziki və

hüquqi şəxslərə informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməklə, tərəflər arasında bilavasitə təmas olmadan göstərilən xidmətlər;

2.1.2. **inzibati reqlament** - elektron xidmətin həyata keçirilməsinin inzibati prosedurunu müəyyənləşdirən texniki normativ hüquqi akt;

2.1.3. **elektron xidmət təminatçısı** (bundan sonra - təminatçı) - elektron xidmətlər göstərən mərkəzi icra hakimiyyəti orqanı *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxs*;

2.1.4. **elektron xidmət istifadəçiləri** (bundan sonra - istifadəçi) - elektron xidmətlərdən istifadə edən *dövlət qurumları*, fiziki və hüquqi şəxslər;

2.1.5. **elektron xidmətlər reyestri** - mərkəzi icra hakimiyyəti orqanları *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər* tərəfindən göstərilən elektron xidmətlər barədə məlumatların daxil edildiyi məlumat bazası;

2.1.6. **reyestrin operatoru** - elektron xidmətlərin reyestrini formalaşdıran və xidmətlərin uçotunu aparan səlahiyyətli orqan;

2.1.7. **"Elektron hökumət"in dövlət informasiya sistemi** - *dövlət qurumlarının* informasiya sistemləri arasında təhlükəsiz informasiya mübadiləsini, elektron xidmətlərin göstərilməsini təmin edən "Elektron hökumət" portalı, ~~elektron xidmətlər reyestri,~~ həmçinin müvafiq sahədə təşkilati-texniki elementlərin vahid kompleksi;[8]

*2.1.8 **"Elektron hökumət" portalı** - dövlət qurumlarının elektron xidmətlərinin mərkəzləşdirilmiş qaydada təqdim olunmasına, istifadəçilərin onlardan istifadəsinə, dövlət qurumlarının portala qoşulmuş informasiya sistemləri və ehtiyatlarından (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) müvafiq sənədlər barədə qanunla müəyyən edilmiş qaydada informasiya əldə edilməsinə xidmət edən internet informasiya ehtiyatı;*[9]

2.1.9. **identikləşdirmə** - informasiya texnologiyalarının imkanlarından istifadə etməklə şəxsin birmənalı müəyyən edilməsi.

### 3. Tətbiq sahəsi

3.1. Bu Qaydalar mərkəzi icra hakimiyyəti orqanları *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər* tərəfindən aşağıdakı konkret sahələrdə göstərilən xidmətləri əhatə edir:

3.1.1. ailə, qadın, uşaq problemləri;
3.1.2. arxitektura və tikinti;
3.1.3. dini qurumlarla iş;
3.1.4. dövlət qulluğu;
3.1.5. əmək və məşğulluq;
3.1.6. əmlak münasibətləri;
3.1.7. gömrük işi;
3.1.8. hüquqi xidmətlər;
3.1.9. hüquq mühafizə;
3.1.10. idman və bədən tərbiyəsi;
3.1.11. kənd təsərrüfatı;
3.1.12. kommunal xidmətlər;
3.1.13. konsulluq xidmətləri;
3.1.14. qaçqınlar və məcburi köçkünlərlə iş;
3.1.15. maliyyə, ~~qiymətli kağızlar,~~ audit;[10]
3.1.16. mədəniyyət, turizm;
3.1.17. müdafiə;
3.1.18. nəqliyyat;
3.1.19. rabitə və informasiya texnologiyaları;
3.1.20. səhiyyə;
3.1.21. sənaye, ticarət;
3.1.22. sosial müdafiə, sosial təminat;
3.1.23. standartlaşdırma və metrologiya;
3.1.24. statistika;
3.1.25. təbii resurslar və ekologiya;
3.1.26. təhsil və elm;
~~3.1.27. torpaq və xəritəçəkmə;~~[11]
3.1.28. vergilər;
3.1.29. vətəndaşlıq, miqrasiya.

### 4. Elektron xidmətlərin göstərilməsi

4.1. Mərkəzi icra hakimiyyəti orqanları *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər* tərəfindən bu Qaydalarla müəyyən olunmuş konkret sahələr üzrə elektron xidmətlərin təşkili hər bir xidmət üzrə hazırlanmış inzibati reqlamentə uyğun həyata keçirilir.

4.2. Mərkəzi icra hakimiyyəti orqanları *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər* informasiya və interaktiv növ elektron xidmətlər *göstərirlər.*[12]

4.3. İnformasiya növlü elektron xidmətlərdə istifadəçilərə sərbəst olaraq müxtəlif məsələlər üzrə elektron formada

məlumatlanma imkanı təmin edilir. Bu növ elektron xidmətlərin göstərilməsi üçün identikləşdirmə tələb olunmur.

4.4. İnteraktiv növlü elektron xidmətlərdə istifadəçilərin mərkəzi icra hakimiyyəti orqanlarının *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin* informasiya sistemlərinə sorğu və ya tapşırıqla müraciəti və müvafiq informasiya, sənəd və ya hər hansı tələb olunan nəticənin əldə edilməsi üçün qarşılıqlı məlumat mübadiləsi təmin edilir. Bu növ elektron xidmətlərin göstərilməsi üçün identikləşdirmə tələb olunur.

4.5. Mərkəzi icra hakimiyyəti orqanının *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxsin* göstərdiyi elektron xidmət bu Qaydaların 10-cu hissəsinə müvafiq olaraq qeydə alınaraq, Reyestrə daxil edilməlidir.

4.6. Elektron xidmətlərin göstərilməsi zamanı "Elektron hökumət" dövlət informasiya sistemindən istifadə edilir.

## 5. Elektron xidmət istifadəçilərinin hüquqları

5.1. Elektron xidmətlərdən istifadə zamanı istifadəçilərin aşağıdakı hüquqları vardır:

5.1.1. elektron xidmətləri müvafiq inzibati reqlamentə uyğun qaydada və vaxtında almaq;

5.1.2. elektron xidmətlərdən istifadə etmək üçün dolğun, aktual və düzgün məlumat əldə etmək;

5.1.3. elektron xidmətlərdən eyni şərtlərlə və bərabərhüquqlu istifadə etmək;

5.1.4. elektron xidmətlərdən istifadə zamanı yaranan mübahisələrin məhkəməyəqədər həlli imkanlarından istifadə etmək.

## 6. Təminatçının hüquq və vəzifələri

6.1. Təminatçının aşağıdakı hüquqları vardır:

6.1.1. təqdim edilmiş sənədlər barədə ətraflı informasiya əldə edilməsi üçün istifadəçinin məlumatlarına əsasən digər *dövlət qurumlarında* aparılan elektron informasiya ehtiyatlarından (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) istifadə etmək, bu mümkün olmadığı hallarda, istifadəçidən həmin sənədlərin əslini tələb etmək;

6.1.2. elektron xidmətlərin göstərilməsi ilə bağlı digər *dövlət qurumları* ilə qarşılıqlı informasiya və sənəd mübadiləsi aparmaq;

6.1.3. istifadəçinin elektron xidmətlərdən istifadə tarixçəsi barədə məlumatları saxlamaq.

6.2. Təminatçı aşağıdakı vəzifələrin yerinə yetirilməsini təmin etməlidir:

6.2.1. elektron xidmətləri qanunvericiliyə uyğun təşkil etmək;

6.2.2. elektron xidmətləri müvafiq inzibati reqlamentlərə uyğun göstərmək;

6.2.3. elektron xidmətlərin qeydə alınaraq Reyestrə daxil edilməsi üçün müvafiq tədbirlər görmək;[13]

*6.2.3-1. elektron xidmətlərin, informasiya sistemlərinin və ehtiyatlarının "Elektron hökumət" portalına qoşulmasının təmin edilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 5 fevral tarixli 813 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron hökumət" portalı haqqında Əsasnamə"yə uyğun tədbirlər görmək;*[14]

6.2.4. elektron xidmətlərin göstərilməsini təmin etmək üçün qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

6.3. Elektron xidmətlərin göstərilməsi dərhal həyata keçirilmədiyi hallarda təminatçı istifadəçinin müraciətinin qəbul edilməsi və sonrakı icrası ilə bağlı ona bildiriş göndərməlidir.

## 7. Təminatçıya və onun istifadəçi ilə münasibətlərinə dair tələblər

7.1. Təminatçı aşağıdakı tələblərə riayət etməlidir:

7.1.1. rəsmi internet informasiya ehtiyatında yaradılmış *dövlət xidmətləri bölməsində* aidiyyəti üzrə göstərilən xidmətin adının, bu xidmətin göstərilməsi üçün tələb olunan sənədlərin dəqiq siyahısının, müvafiq sənədlərin (ərizə, blank və digər) elektron formasının yerləşdirilməsi, şəxslərin bu bölmədən maneəsiz, sərbəst istifadəsinin təmin edilməsi;[15]

7.1.2. istifadəçi tərəfindən müəyyən edilmiş qaydada doldurulmuş ərizə və tələb olunan sənədlərin skan edilmiş surətlərinin elektron formada qəbul edilməsinin, bu barədə göndərən şəxsə təsdiqetmə bildirişinin göndərilməsinin və həmin sənədlərə qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə baxılmasının təmin edilməsi, həmçinin bu məqsədlə "bir pəncərə" prinsipi əsasında yaradılan "Elektron hökumət" portalının istifadə edilməsinə şərait yaradılması;

7.1.3. elektron xidmətin göstərilməsinin gedişatı barədə istifadəçiyə məlumat almaq imkanının yaradılması və nəticənin ona təqdim edilməsi;

7.1.4. elektron xidmətlərin göstərilməsi üçün digər *dövlət qurumları* ilə qarşılıqlı əlaqələrin həyata keçirilməsi;

7.1.5. *dövlət xidmətləri bölməsi* vasitəsilə aparılan əməliyyatların və fərdi məlumatların təhlükəsizliyini təmin etmək məqsədi ilə zəruri texniki təhlükəsizlik tədbirlərinin görülməsi;[16]

7.1.6. qanunvericilikdə nəzərdə tutulan digər lazımi tədbirlərin həyata keçirilməsi.

7.2. Elektron xidmətlərin göstərilməsi zamanı təminatçı istifadəçidən inzibati reqlamentdə nəzərdə tutulmayan sənədlərin, həmçinin digər *dövlət qurumlarının* informasiya ehtiyatlarında mövcud olan sənədlərin və məlumatların təqdim edilməsini, o cümlədən, qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla, digər *dövlət qurumlarına* əlavə müraciət etməsini, hər hansı razılaşdırma aparılmasını tələb etməməlidir.

7.3. Təminatçı istifadəçi tərəfindən elektron formada göndərilmiş sənədlərin və məlumatların adi qaydada emal edilməsini, saxlanılmasını və mövcud kargüzarlıq qaydalarına müvafiq olaraq baxılmasını təmin etməlidir.

7.4. İstifadəçi tərəfindən elektron formada göndərilmiş sənədlərin və məlumatların keyfiyyəti aşağı, natamam, oxunulmaz olduqda və ya digər çatışmazlığı halında təminatçı bu barədə istifadəçini məlumatlandırmalı və ona elektron xidmətin göstərilməsinin mümkün olması üçün bu halların aradan qaldırılmasını tövsiyə etməlidir.

## 8. Elektron xidmətlər üzrə ödənişlər

8.1. Təminatçı tərəfindən elektron xidmətin göstərilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş ödənişlərdən başqa əlavə haqq (ödəniş) tələb edilməməlidir.

8.2. Təminatçı elektron xidmətin göstərilməsi üçün ödənişin real vaxt rejimində elektron formada həyata keçirilməsi imkanını təmin etməlidir.

## 9. Elektron xidmətlərin həyata keçirilməsi üçün inzibati reqlamentlərin işlənilməsi

9.1. Təminatçılar bu Qaydaların 1 nömrəli əlavəsi ilə müəyyən edilmiş nümunəvi formaya uyğun olaraq, hər bir elektron xidmət üzrə ayrıca inzibati reqlament hazırlamalıdırlar.

9.2. Elektron xidmətin həyata keçirilməsi üçün inzibati reqlament bu xidməti təmin edəcək mərkəzi icra hakimiyyəti orqanı *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxs* tərəfindən hazırlanır ~~və təsdiq edilir~~. *Mərkəzi icra hakimiyyəti orqanının hazırladığı inzibati reqlament həmin orqan tərəfindən, Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin hazırladığı inzibati reqlament Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.* Elektron xidmətin göstərilməsində digər *dövlət qurumlarının* iştirakı nəzərdə tutulduğu halda, inzibati reqlament bu qurumlarla razılaşdırılmaqla xidməti təmin edəcək qurum tərəfindən hazırlanır və qanunvericiliyin tələblərinə uyğun qaydada təsdiq edilir. [17]

9.3. İnzibati reqlamentin işlənilməsi zamanı mərkəzi icra hakimiyyəti orqanı *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxs* elektron xidmətin göstərilməsinin optimallaşdırılması, keyfiyyətinin yüksəldilməsi, həmçinin aşağıdakılar əsas götürülür:

9.3.1. inzibati prosedurların və əməliyyatların nizamlanması, qanunvericiliyə zidd olmadığı hallarda artıq olan prosedur və əməliyyatların aradan qaldırılması;

9.3.2. təqdim olunan sənədlərin sayının azaldılması, eyni məlumatların təkrar təqdim edilməsinin qarşısını alan yeni sənəd formalarının tətbiq edilməsi, həmçinin istifadəçi və təminatçı arasında bilavasitə təmasın aradan qaldırılması üçün idarələrarası razılaşdırmaların informasiya texnologiyalarının tətbiqi vasitəsilə aparılması;

9.3.3. elektron xidmətin göstərilməsi üçün tələb olunan müddətin azaldılması;

9.3.4. elektron xidmətin göstərilməsinə görə məsuliyyət daşıyan şəxslərin müəyyənləşdirilməsi.

9.4. İnzibati reqlamentdə elektron xidmətin həyata keçirilməsində iştirak edən bütün qurumların - *dövlət qurumlarının*, onların tabeliyində olan təşkilatların, digər aidiyyəti qurumların fəaliyyəti, hərəkətləri dəqiq və dolğun təsvir olunur.

9.5. İnzibati reqlament aşağıdakı tələblərə uyğun olmalıdır:

9.5.1. elektron xidmətin yerinə yetirilməsi üçün mərkəzi icra hakimiyyəti orqanının *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxsin*, o cümlədən aidiyyəti struktur bölmələrinin və tabeliyində olan təşkilatların müvafiq fəaliyyətini tam əhatə etməlidir;

9.5.2. aydın və qısa yazılmalıdır.

9.6. İnzibati reqlamentdə əsasən aşağıdakılar əks olunmalıdır:

9.6.1. ümumi hissə;

9.6.2. elektron xidmətin göstərilməsi üçün fəaliyyət ardıcıllığı;

9.6.3. elektron xidmətin göstərilməsi zamanı qarşılıqlı münasibətlər.

9.7. İnzibati reqlamentin layihəsi onu hazırlayan mərkəzi icra hakimiyyəti orqanının *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxsin* internet informasiya ehtiyatında ictimai müzakirəyə çıxarılmalıdır.

*9.8. Təsdiq olunmuş İnzibati reqlament xidmət göstərən dövlət qurumunun internet informasiya ehtiyatında yerləşdirilməli və tanışlıq üçün ictimaiyyətə açıq olmalıdır.*[18]

## 10. Reyestrin aparılması

10.1. Hər bir mərkəzi icra hakimiyyəti orqanının *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxsin* göstərdiyi elektron xidmətlər qeydə alınaraq, elektron xidmətlər reyestrinə daxil edilməlidir. Elektron xidmətlər Reyestri reyestrin operatoru tərəfindən aparılır.

10.2. Reyestrin aparılmasına aşağıdakı fəaliyyətlər aiddir:

10.2.1. elektron xidmətin Reyestrə daxil etməklə qeydə alınması;

10.2.2. Reyestrə daxil edilmiş elektron xidmət haqqında məlumatlara düzəlişlər edilməsi;

10.2.3. elektron xidmətin qeydə alınmasının ləğv edilməsi və Reyestrdən çıxarılması.

10.3. Elektron xidmətin qeydə alınması üçün mərkəzi icra hakimiyyəti orqanı *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxs* bu Qaydaların 2 nömrəli əlavəsində göstərilən ərizə formasını dolduraraq, Reyestrin operatoruna müraciət etməlidir.

10.4. Reyestrin operatoru müraciət ərizəsini aldıqdan sonra 3 iş günü ərzində elektron xidməti qeydə alaraq Reyestrə daxil edilməsini təmin edir və elektron xidmətə təkrarolunmaz reyestr nömrəsinin verilməsi barədə mərkəzi icra hakimiyyəti orqanına *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxsə* bildiriş göndərir.

10.5. Reyestrdə elektron xidmətlər barədə aşağıdakı məlumatlar saxlanılır:

10.5.1. elektron xidmətin qeydə alınması və ya qeydə alınmasının ləğv edilməsi barədə məlumatlar;

10.5.2. müraciət ərizəsinə daxil edilmiş məlumatlar.

10.6. Reyestrə daxil edilmiş elektron xidmətlər barədə məlumatlarda düzəlişlər olduqda, təminatçı 3 iş günü ərzində Reyestrdə müvafiq düzəlişlərin edilməsi üçün Reyestrin operatoruna müraciət etməlidir.

10.7. Elektron xidmətin qeydə alınmasının ləğv edilməsi təminatçının müraciəti əsasında və qanunvericiliyin

tələblərinə uyğun həyata keçirilir.

10.8. Reyestrdə düzəlişlər edilməsi barədə müraciət daxil olduğu tarixdən etibarən Reyestrin operatoru tərəfindən 1 iş günü ərzində həyata keçirilir və bu barədə mərkəzi icra hakimiyyəti orqanına *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxsə* məlumat verilir.

### 11. Elektron xidmətlərin təqdim olunması üsulları

11.1. Mərkəzi icra hakimiyyəti orqanları *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər* tərəfindən göstərilən elektron xidmətlər onların rəsmi internet informasiya ehtiyatlarında və "Elektron hökumət" portalında istifadəçilərə təqdim olunur.

11.2. Mərkəzi icra hakimiyyəti orqanları *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər* elektron xidmətlərini öz rəsmi internet informasiya ehtiyatlarında yaradılmış *dövlət xidmətləri bölməsində* təqdim edirlər.[19]

11.3. "Elektron hökumət" portalı elektron xidmətlər haqqında məlumatların istifadəçilərə çatdırılmasına və elektron xidmətlərdən sadə yolla və "bir pəncərə" prinsipi əsasında istifadəsinə imkan verir.

*11.4. "Elektron hökumət" portalının fəaliyyətinin təşkili Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, təhlükəsizliyinin təmin edilməsi həmin Nazirliklə birgə Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi tərəfindən həyata keçirilir.*[20]

11.5. "Elektron hökumət" portalında istifadəçilər üçün aşağıdakı imkanlar təmin edilir:

11.5.1. fərdiləşdirilmiş xidmətlərin göstərilməsi üçün portala təhlükəsiz giriş mexanizmlərindən istifadə edilməsi;

11.5.2. portal vasitəsilə *dövlət qurumları* və onlar tərəfindən göstərilən elektron xidmətlər haqqında məlumatların əldə edilməsi;

11.5.3. mövcud sorğulardan istifadə etməklə, müəyyən formaları doldurmaqla və ya bilavasitə mənbəyə keçidi təmin etməklə, elektron xidmətlərin o cümlədən ödəniş nəzərdə tutan xidmətlərin göstərilməsi;

11.5.4. rəsmi yazışmalar altsisteminə keçidin təmin edilməsi.

11.6. "Elektron hökumət" portalının tərkib hissəsi kimi təşkil edilən rəsmi yazışmalar altsistemi vətəndaşlara *dövlət qurumları* ilə etibarlı, təhlükəsiz və ümumi şəkildə təmas yaratmağa imkan verir.

11.7. Rəsmi yazışmalar altsistemində vətəndaşlar bu sistemə qoşulmuş mərkəzi icra hakimiyyəti orqanlarına *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərinə* rəsmi müraciətlər göndərə və nəticələri barədə məlumatlar əldə edə bilərlər.

### 12. Elektron imzadan istifadə

12.1. Elektron xidmətlərin göstərilməsi zamanı elektron imzadan aşağıdakı hallarda istifadə edilə bilər:

12.1.1. elektron xidmətlərin istifadəçisinin autentifikasiyası;

12.1.2. rəsmi yazışmalar sistemində müraciətlərin göndərilməsi və cavabların alınması;

12.1.3. mərkəzi icra hakimiyyəti orqanlarına *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərinə* elektron formada göndərilən sənədlərin imzalanması.

12.2. Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq *dövlət qurumlarına* fiziki və ya hüquqi şəxs tərəfindən göndərilən sənədlər onun gücləndirilmiş imzası ilə təsdiqlənməlidir.

12.3. Elektron imzadan istifadə ilə bağlı bu Qaydalarda nəzərdə tutulmayan digər məsələlər elektron imza və elektron sənəd haqqında Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

### 13. Elektron xidmətlərlə bağlı məsuliyyət

13.1. Mərkəzi icra hakimiyyəti orqanları *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər* elektron xidmətlərin göstərilməsi zamanı əldə etdikləri fərdi məlumatların və digər məlumatların qanunvericiliyə müvafiq qaydada mühafizəsini təmin etməlidirlər.

13.2. Elektron imzadan istifadə zamanı hər bir imza sahibi onu yaratma məlumatlarını gizli saxlamalıdır.

13.3. İstifadəçilər "Elektron hökumət" portalına müraciət üçün onlara verilmiş giriş məlumatlarının qorunmasına, digər şəxslərə verilməməsinə, elektron xidmətlərdən qanunauyğun şəkildə istifadəsinə görə qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar.

13.4. Elektron xidmətlərin göstərilməsi üzrə yaranan mübahisələr tərəflərin razılaşması yolu ilə həll olunmadığı halda, qanunvericiliyə uyğun olaraq məhkəməyə müraciət edilə bilər.

"Mərkəzi icra hakimiyyəti orqanları *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər*
tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"na
1 nömrəli əlavə [21]

**Nümunəvi forma**

~~Təsdiq edirəm:~~[22]
~~(mərkəzi icra hakimiyyəti orqanının adı,~~
~~rəhbər şəxsin soyadı, adı, atasının adı,~~
~~imza, tarix, möhür)~~

________________________________________________
*elektron xidmətin tam adı (dövlət qurumunun və elektron xidmətin adı)*

**üzrə inzibati reqlament**

## 1. Ümumi müddəalar

1.1. Elektron xidmətin adı:

________________________________________________
*elektron xidmətin rəsmi adı*

1.2. Elektron xidmətin məzmunu:

________________________________________________
*xidmət və onun tətbiq sahəsi haqqında qısa məlumat*

1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:

________________________________________________
*xidmətin göstərilməsini tənzimləyən normativ hüquqi aktların (konkret bəndləri göstərməklə) siyahısı*

1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:

________________________________________________
*tam adı*

1.5. Elektron xidmətin digər icraçıları:

________________________________________________
*elektron xidmətin göstərilməsində iştirak edən digər dövlət ~~orqanlarının və~~ qurumlarının siyahısı*[23]

1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:

________________________________________________
*tam, qismən*

1.7. Elektron xidmətin icra müddəti: ________________________________________________

**Qeydlər:**
1. Tam avtomatlaşdırılmış elektron xidmət üçün xidmətin göstərilmə vaxtı sorğunun informasiya sistemləri tərəfindən emalı vaxtilə müəyyən edilir.
2. Qismən avtomatlaşdırılmış elektron xidmətin göstərilməsi üçün təqdim edilmiş məlumatın dolğunluğundan asılı olaraq, xidmətin müddətinin aşağı və yuxarı həddi müəyyən olunur.

1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:

________________________________________________
*arayış, ~~icazə, xüsusi razılıq (lisenziya),~~ sertifikat, əməliyyat və s.*[24]

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

2.1. Elektron xidmətin növü:

________________________________________________
*informativ, interaktiv*

2.2. Elektron xidmət üzrə ödəniş: *a) ödənişsiz* *b) ödənişli*
2.2.1. Ödənişlidirsə,

________________________________________________
*məbləğ və xidmət üçün ödəniş tələb olunmasının hüquqi əsası*

________________________________________________
*bank rekvizitləri, ödəmə üsulları - internet-ödəmə, terminal, nağd və s.*

2.3. Elektron xidmətin istifadəçiləri:

________________________________________________
*fiziki şəxslər, hüquqi şəxslər, dövlət qurumları, digərləri*[25]

2.4. Elektron xidmətin təqdim olunma yeri:

________________________________________________
*elektron xidmətin göstərildiyi internet informasiya ehtiyatının veb ünvanı*

2.5. Elektron xidmət barədə məlumatlandırma:

______________________________________________________________

______________________________________________________________

*elektron xidmət barədə məlumatın, məsləhətlərin əldə edilə biləcək elektron xidmətlər portalının, dövlət qurumlarının internet informasiya ehtiyatının veb ünvanı, elektron poçt ünvanı, telefon nömrəsi*

2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:

2.6.1. elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər *dövlət qurumlarının* informasiya ehtiyatında olduqda:

______________________________________________________________

*sənədlərin (şəxsiyyət vəsiqəsi, şəhadətnamə, hərbi bilet, attestat və s.) nömrəsini və ya onu identikləşdirməyə imkan verən digər rekvizitlər*

2.6.2. elektron xidmətin göstərilməsi üçün tələb olunan məlumatlar və sənədlər *dövlət qurumlarının* informasiya ehtiyatında olmadıqda:

______________________________________________________________

*sənədlərin (şəxsiyyət vəsiqəsi, şəhadətnamə, hərbi bilet, attestat və s.) elektron formada surətləri*

**Qeydlər:**

1. *Dövlət xidmətləri bölməsinə* müraciət edən şəxs tərəfindən doldurulması tələb olunan ərizə, anket, blank və digər sənədlərin formaları bu reqlamentə əlavə edilir.[26]

2. Tələb olunan sənədlərə qanunvericiliklə notarial qaydada təsdiqlənmə və ya digər tələblər müəyyənləşdirilmişdirsə, bu halda elektron xidmətin göstərilməsi üçün həmin sənədlərin elektron formada surətləri, icranın nəticəsinin əldə edilməsi zamanı isə onların əsli bilavasitə təqdim edilir.

### 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

3.1. İnformativ növlü elektron xidmətlər istifadəçilər üçün daim açıqdır və müraciət edilməsi hər hansı qaydada məhdudlaşdırıla bilməz.

3.2. İnteraktiv elektron xidmətlər uçun sorğu:

3.2.1. sorğunun formalaşdırılması;

3.2.2. sorğunun qəbulu.

3.3. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:

3.3.1. sorğunun yerinə yetirilməsindən imtina halları (tam və qismən avtomatlaşdırılmış xidmətlərin uyğun xüsusiyyətləri nəzərə alınmaqla);

3.3.2. sorğunun qəbulu.

3.4. Sorğunun icrası:

3.4.1. ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul şəxs haqqında məlumat;

3.4.2. hər bir inzibati əməliyyatın məzmunu, yerinə yetirilmə müddəti və/və ya maksimal yerinə yetirilmə müddəti;

3.4.3. inzibati əməliyyatda iştirak edən digər *dövlət qurumu* haqqında məlumat;

3.4.4. hər bir inzibati prosedurun nəticəsi və onun verilməsi qaydası.

3.5. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:

3.5.1. nəzarət forması;

3.5.2. nəzarət qaydası.

3.6. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:

3.6.1. istifadəçinin şikayət etmək hüququ haqqında məlumat;

3.6.2. şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya;

3.6.3. şikayətin baxılma müddəti.

"Mərkəzi icra hakimiyyəti orqanları *və*
*Azərbaycan Respublikasının Prezidenti*
*tərəfindən yaradılan publik hüquqi şəxslər*
tərəfindən konkret sahələr üzrə elektron
xidmətlər göstərilməsi Qaydaları"na
2 nömrəli əlavə[27]

**Elektron xidmətin qeydə alınması**
**(üzərində düzəliş aparılması, ləğv edilməsi) barədə müraciət ərizəsi**

1. Elektron xidmət göstərən dövlət qurumunun adı:

_______________________________________________

*tam adı*

2. Elektron xidmət haqqında məlumatın:
qeydə alınmasını;
üzərində düzəliş aparılmasını; Reyesr [1]____________
qeydə alınmasının ləğv edilməsini Reyesr [1]____________
xahiş edirik.

3. Elektron xidmətin adı:

_______________________________________________

*elektron xidmətin rəsmi adı*

4. Elektron xidmətin digər icraçıları:

_______________________________________________

*elektron xidmətin göstərilməsində iştirak edən digər dövlət ~~orqanlarının və~~ qurumlarının siyahısı*[28]

5. Elektron xidmətin məzmunu:

_______________________________________________

*xidmət və onun tətbiq sahəsi haqqında qısa məlumat*

6. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:

_______________________________________________

*xidmətin göstərilməsini tənzimləyən normativ hüquqi aktlar (konkret bəndləri göstərilməklə)*

7. Elektron xidmətin növü:

_______________________________________________

*informativ, interaktiv*

8. Elektron xidmət üzrə ödəniş:
*ödənişsiz*
*ödənişli*

9. Elektron xidmətin istifadəçiləri:

_______________________________________________

*fiziki şəxslər, hüquqi şəxslər, dövlət orqanları, digərləri*

10. Elektron xidmətin təqdim olunma yeri:

_______________________________________________

*elektron xidmətin göstərildiyi internet informasiya ehtiyatının veb ünvanı*

Təqdim olunan məlumatların həqiqiliyini təsdiq edirik.

________________________ ________________________
*müraciət edənin imzası* *rəhbərin soyadı, adı*

"____" _______________ 20___ il

**Qeydlər:**
1. Ərizə möhürlə təsdiq edilir.
2. Məlumat elektron formada təqdim edilərsə, gücləndirilmiş elektron imza ilə təsdiq edilir. Əgər real vaxt rejimində (on-line) doldurulma tətbiq edilərsə, bu zaman autentifikasiya mexanizmi istifadə edilməlidir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2012-ci il 17 oktyabr tarixli 235 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**2 nömrəli əlavə**

**Elektron xidmət növlərinin**

**SİYAHISI** [29]

| Sıra-si | Xidmətin adı |
|---|---|
| **1** | **2** |
| | **1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi** |
| **1.1.** | Azərbaycan Respublikasına səfər etmək istəyən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə vizaların verilməsi üçün müraciətin və sənədlərin qəbulu |
| **1.2.** | Xarici müxbirlərin akkreditasiyası üçün müraciətin və sənədlərin qəbulu |
| **~~1.3.~~** [30] | ~~Xaricdə yaşayan azərbaycanlıların və Azərbaycan Respublikasının ərazisində olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müraciətlərinin qəbulu~~ |
| | **2. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi** |
| **2.1.** | Xidməti və mülki silahın qeydiyyata alınması (qeydiyyatın dəyişdirilməsi) üçün müraciətin və sənədlərin qəbulu |
| **2.2.** | Xidməti və mülki silahın alınmasına və saxlanılmasına *icazənin* verilməsi üçün müraciətin və sənədlərin qəbulu [31] |
| **~~2.3.~~** [32] | ~~Müxtəlif növ möhürlərin və ştampların hazırlanmasına xüsusi razılığın verilməsi üçün müraciətin və sənədlərin qəbulu~~ |
| **2.4.** | *Özəl* mühafizə fəaliyyətinə *lisenziya* verilməsi üçün müraciətin və sənədlərin qəbulu [33] |
| **2.5.** | Mülkiyyətçilərin əmlakının mühafizəyə götürülməsi üçün müraciətin və sənədlərin qəbulu |
| **2.6.** | Sürücülük vəsiqəsinin verilməsi üçün müraciətin və sənədlərin qəbulu |
| **2.7.** | Nəqliyyat vasitələrinə texniki baxışın keçirilməsi üçün müraciətin və sənədlərin qəbulu |
| **2.8.** [34] | Yol hərəkəti qaydaları *və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi qaydaları* əleyhinə olan inzibati xətalarla bağlı görülən tədbirlər barədə məlumat verilməsi və cərimələrin ödənilməsi |
| **2.9.** | Nəqliyyat vasitələrinin dövlət qeydiyyatına alınması üçün müraciətin və sənədlərin qəbulu |
| **2.10.** | Nəqliyyat vasitələrinin dövlət qeydiyyat nişanında əks olunmuş rəqəmlərin və ya hərflərin kombinasiyasının sifariş verilməsi |
| **2.11.** | Nəqliyyat vasitələrində reklamın yayılmasına razılığın verilməsi üçün müraciətin və sənədlərin qəbulu |
| **2.12.** | Nəqliyyat vasitələrinin avadanlıqla təchiz olunmasına razılığın verilməsi üçün müraciətin və sənədlərin qəbulu |
| **2.13.** | Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta hadisəsi hesab edilə bilən halın baş verməsi faktını təsdiqləyən arayışın verilməsi üçün müraciətin qəbulu |
| **2.14.** | Vətəndaşların şəxsiyyət vəsiqəsinin dəyişdirilməsi üçün müraciətin və sənədlərin qəbulu |
| **2.15.** | Ümumvətəndaş pasportunun dəyişdirilməsi üçün müraciətin və sənədlərin qəbulu |
| **2.16.** | Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin şəxsiyyət vəsiqələrinin və onların ölkə hüdudlarını tərk etmək üçün şəxsiyyət vəsiqələrinin dəyişdirilməsi məqsədi ilə müraciətin və sənədlərin qəbulu |

| | |
|---|---|
| **2.17.** | Dövriyyəsi məhdudlaşdırılan narkotik vasitələr, psixotrop maddələr, dövriyyəsinə nəzarət edilən psixotrop maddələr, narkotik vasitələrin və psixotrop maddələrin istehsalında istifadə edilən və dövriyyəsinə nəzarət edilən avadanlığın istifadəsinə *icazənin* verilməsi üçün müraciətin və sənədlərin qəbulu |
| **2.18.** | Narkotik vasitələrə və psixotrop maddələrə aid olmayan güclü təsir edən və ya zəhərli maddələr, həmin maddələri hazırlamaq və ya emal etmək üçün avadanlığın dövriyyəsinə *icazənin* verilməsi məqsədi ilə müraciətin və sənədlərin qəbulu |
| **2.19.** | Daxili işlər orqanlarında xidmətə qəbul üçün müraciətin və sənədlərin qəbulu |
| **2.20.** | Məhkumluq barədə arayışların verilməsi üçün müraciətin və sənədlərin qəbulu |
| **2.21.** | Arxiv arayışlarının verilməsi üçün müraciətin və sənədlərin qəbulu |
| **2.22.** | İtirilmiş əşyanın tapılmaması barədə arayışların verilməsi üçün müraciətin və sənədlərin qəbulu |
| **2.23.** | Uşaq bağçalarına və yay istirahət düşərgələrinə yollayışların verilməsi üçün müraciətin və sənədlərin qəbulu |
| **2.24.** | Daxili İşlər Nazirliyinin "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzinə yollayışların verilməsi üçün müraciətin və sənədlərin qəbulu |
| ***2.25.***[35] | *Nəqliyyat vasitələrinin mülkiyyətçilərinə avtomobilin axtarışda, yaxud yüklü olub-olmaması barədə arayışın verilməsi* |
| ***2.26.*** | *Nəqliyyat vasitələrinin zədələnməsinə dair arayışın verilməsi* |
| | **3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi** |
| **3.1.** | Dövlət Notariat Arxivindən notariat hərəkətləri barədə məlumatın və onlarla bağlı sənədlərin surətlərinin verilməsi |
| **3.2.** | Qeydiyyat orqanları və vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatının aparılması barədə məlumatın verilməsi |
| **3.3.** | Azərbaycan adları barədə məlumatın verilməsi |
| **3.4.** | Qeydiyyata alınmış vətəndaşlıq vəziyyəti aktları ilə bağlı sənədlərin verilməsi |
| **3.5.** | Qeyri-kommersiya hüquqi şəxslərin ~~*və təhsil müəssisələrinin*~~ qeydiyyatı proseduru, adları, eləcə də qeydiyyata alınıb-alınmaması barədə məlumatın verilməsi[36] |
| **3.6.** | Mətbu nəşrlərin uçotu üçün müraciətin və sənədlərin qəbulu |
| **3.7.** | Qeydiyyata alınmış qeyri-kommersiya hüquqi şəxslər ~~*və təhsil müəssisələri*~~ üçün fərdi e-pəncərə[37] |
| **3.8.** | Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrindən məlumatın verilməsi |
| ***3.9.***[38] | *Doğum haqqında vətəndaşlıq vəziyyəti aktının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu* |
| *3.9-1.*[39] | *Ölüm haqqında vətəndaşlıq vəziyyəti aktının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu* |
| *3.9-2.* | *Nikah haqqında vətəndaşlıq vəziyyəti aktının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu* |
| *3.9-3.* | *Nikahın pozulması haqqında vətəndaşlıq vəziyyəti aktının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu* |
| *3.9-4.* | *Övladlığa götürmə haqqında vətəndaşlıq vəziyyəti aktının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu* |
| *3.9-5.* | *Atalığın müəyyən edilməsi haqqında vətəndaşlıq vəziyyəti aktının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu* |
| *3.9-6.* | *Adın, ata adının və soyadın dəyişdirilməsi haqqında vətəndaşlıq vəziyyəti aktının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu* |
| **3.10.** | Notariat *ofisləri* və notariat hərəkətlərinin aparılması barədə məlumatın verilməsi[40] |
| **3.11.** | İcra qurumları və onlar tərəfindən hərraca çıxarılan əmlaklar, eləcə də dəyəri *5000* manatdan artıq olmayan daşınar əmlakın satışı üzrə ticarət şəbəkələri haqqında məlumatın verilməsi[41] |
| **3.12.** | Mülki dövriyyə nəticəsində baş verən hüquqi hadisələrdən yaranan yeni hüquq və vəzifələr barədə fiziki və hüquqi şəxslərin məlumatlandırılması |
| **3.13.** | Ədliyyə orqanları və notariusların qəbuluna onlayn yazılış |

| | |
|---|---|
| **3.14.** | Azərbaycan Respublikasının vətəndaşlarına, həmçinin Azərbaycan Respublikasında daimi yaşayan *və ya qaçqın statusu almış* əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə fərdi identifikasiya nömrəsi barədə məlumatın verilməsi[42] |
| **3.15.** | Borcun, icra ödənişinin, icra hərəkətləri ilə bağlı xərclərin internet vasitəsilə ödənilməsi |
| **3.16.** | Borclunun ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məlumatın verilməsi |
| **3.17.** | Ədliyyə Nazirliyinə elektron müraciət |
| **3.18.**[43] | Azərbaycan Respublikasında qeyri-kommersiya hüquqi şəxslərin ~~*və təhsil müəssisələrinin*~~ dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbu nəşrdə qeyri-kommersiya hüquqi şəxsin ~~*və təhsil müəssisəsinin*~~ ləğv edilməsi, kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın dərc olunması ilə bağlı müraciətlərin qəbulu və dərcolunma faktını təsdiq edən sənədin verilməsi. |
| ***3.19.***[44] | *Vərəsəlik işlərinin açılıb-açılmaması barədə məlumatın verilməsi* |
| ***3.20.*** | *Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı müsabiqədə iştirak üçün namizədin qeydə alınması* |
| ***3.21.*** | *Notariat hərəkətləri, apostilin verilməsi və vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı ilə əlaqədar ödənişlərin internet vasitəsilə ödənilməsi* |
| ***3.22.*** | *Məhkəmə rüsumlarının internet vasitəsilə ödənilməsi* |
| ***3.23.*** | *İqtisadi mübahisələr üzrə elektron imza ilə təsdiq edilmiş iddia ərizələrinin və digər sənədlərin verilməsi və alınması* |
| ***3.24.*** | *İqtisadi mübahisələr üzrə işlərdə iştirak edən şəxslərə həmin məhkəmə işləri üzrə məhkəmə baxışının gedişatı barədə məlumatın verilməsi* |
| ***3.25.*** | *Əmr icraatı üzrə elektron imza ilə təsdiq edilmiş ərizələrin və digər sənədlərin verilməsi və alınması*[45] |
| | **4. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi** |
| ~~4.1.~~ | ~~Xüsusi razılıqların (lisenziyaların) verilməsi üçün müraciətin və sənədlərin qəbulu~~ |
| **4.2.** | *İcazələrin* verilməsi üçün müraciətin və sənədlərin qəbulu[46] |
| ~~4.3.~~ | ~~Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyində obyektlərin ekspertizasının aparılması üçün müraciətin və sənədlərin qəbulu~~ [47] |
| **4.4.** | *Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti* tərəfindən gəmilərin dövlət qeydiyyatının aparılması üçün müraciətin və sənədlərin qəbulu[48] |
| | ***4-1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi***[49] |
| ***4-1.1.*** | *Bələdiyyələr tərəfindən təqdim edilən rüblük maliyyə məlumatlarının qəbulu* |
| ***4-1.2.*** | *Kommersiya təşkilatları və publik hüquqi şəxslər tərəfindən təqdim edilən maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının qəbulu* |
| ***4-1.3.*** | *Qeyri-hökumət təşkilatları, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəlikləri tərəfindən təqdim edilən illik maliyyə hesabatlarının qəbulu* |
| ***4-1.4.*** | *Qiymətli metallar və qiymətli daşlarla, onlardan hazırlanmış zərgərlik və digər məişət məmulatları ilə əməliyyatlar həyata keçirən hüquqi və fiziki şəxslər tərəfindən təqdim edilən statistik hesabatların qəbulu* |
| - | ~~**5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi**~~ |
| ~~5.1.~~ | ~~Sığorta, təkrar sığorta, sığorta brokeri, sığorta agenti fəaliyyətinə xüsusi razılığın (lisenziyanın) verilməsi üçün müraciətin və sənədlərin qəbulu~~ |
| ~~5.2.~~ | ~~Qiymətli metalların və qiymətli daşların istehsalı, emalı və istifadəsi, dövriyyəsi fəaliyyətinə xüsusi razılığın (lisenziyanın) verilməsi üçün müraciətin və sənədlərin qəbulu~~ |
| ~~5.3.~~ | ~~Ciddi hesabat blanklarının hazırlanması fəaliyyətinə xüsusi razılığın (lisenziyanın) verilməsi üçün müraciətin və sənədlərin qəbulu~~ |
| ~~5.4.~~ | ~~Qeyri-dövlət pensiya fondlarının fəaliyyətinə xüsusi razılığın (lisenziyanın) verilməsi üçün müraciətin və sənədlərin qəbulu~~ |
| | **6. Azərbaycan Respublikasının İqtisadiyyat ~~*və Sənaye*~~ Nazirliyi**[50] |
| **6.1.** | Malın mənşə ölkəsini təsdiq edən sertifikatın verilməsi üçün müraciətin və sənədlərin qəbulu |
| ~~6.2.~~ | ~~İxrac olunan yeyinti məhsullarının keyfiyyətini və təhlükəsizliyini təsdiq edən keyfiyyət sertifikatının verilməsi üçün müraciətin və sənədlərin qəbulu~~ |

| | |
|---|---|
| **6.3.** | Kommersiya hüquqi şəxslərə, *publik hüquqi şəxslərə* münasibətdə qrant müqavilələrinin qeydiyyata alınması üçün müraciətin və sənədlərin qəbulu[51] |
| ~~**6.4.**~~ | ~~Əmtəə birjasının fəaliyyətinə xüsusi razılığın (lisenziyanın) verilməsi üçün müraciətin və sənədlərin qəbulu~~ |
| ~~**6.5.**~~ | ~~Əlvan metal, tərkibində qiymətli metallar və daşlar olan sənaye və istehsalat tullantılarının tədarükü, emalı və satışı fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsi üçün müraciətin və sənədlərin qəbulu~~ |
| ~~**6.6.**~~ | ~~Avropa İttifaqı ölkələrinə yeyinti məhsullarının ixracı ilə məşğul olan istehsal və emal müəssisələrinə təsdiqedici kod nömrəsinin verilməsi üçün müraciətin və sənədlərin qəbulu~~ |
| **6.7.** | İnzibati cərimələrin və maliyyə sanksiyalarının internet vasitəsilə ödənilməsi |
| ***6.8.***[52] | *Keçirilməsi nəzərdə tutulan dövlət satınalmalarına dair məlumatların verilməsi* |
| ***6.9.*** | *Keçirilmiş müsabiqələr və qalib malgöndərən (podratçı) haqqında məlumatların verilməsi* |
| ***6.10.*** | *Xarici ölkələrdə keçirilən dövlət satınalmalarına dair məlumatların verilməsi* |
| ***6.11.*** | *İnvestisiya təşviqi sənədinin verilməsi üçün müraciətin və sənədlərin qəbulu* |
| ***6.12.*** | *İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi üçün müraciətin və sənədlərin qəbulu*[53] |
| | **7. Azərbaycan Respublikasının Vergilər Nazirliyi** |
| **7.1.** | Elektron bəyannamənin qəbulu |
| **7.2.** | Elektron vergi hesab fakturasının qəbulu |
| **7.3.** | Vahid depozit hesabı vasitəsilə ƏDV üzrə elektron ödənişlərin və əvəzləşmələrin aparılması |
| ***7.4.*** | *Fiziki şəxslərin vergi uçotuna alınması*[54] |
| **7.5.** | Kommersiya hüquqi şəxslərin onlayn qeydiyyatı |
| **7.6.** | ƏDV məqsədləri üçün onlayn qeydiyyat |
| ***7.7.*** | *Banklarda hesabların açılması üçün şəhadətnamə-dublikatın verilməsi*[55] |
| **7.8.** | Vergi və digər büdcə daxilolmalarının internet vasitəsilə ödənilməsi |
| **7.9.** | Bəyannamələrin vergi orqanları tərəfindən hazırlanması və təsdiq edilmək üçün vergi ödəyicilərinə göndərilməsi |
| **7.10.** | Sadələşdirilmiş vergi bəyannaməsinin vergi orqanına onlayn təqdim edilməsi |
| **7.11.** | *Vergi öhdəliyinin yaranmaması haqqında arayışların vergi orqanına təqdim edilməsi*[56] |
| **7.12.** | Vergi borcu barədə arayışın verilməsi üçün müraciətin qəbulu |
| **7.13.** | Şəxsi hesab vərəqəsindən çıxarışın verilməsi üçün müraciətin qəbulu |
| **7.14.** | Üzləşmə aktlarının verilməsi üçün müraciətin qəbulu |
| **7.15.** | Vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) onlayn qeydiyyatı |
| **7.16.** | Vergi ödəyicisinin filialının, nümayəndəliyinin onlayn qeydiyyatı |
| **7.17.** | Vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) onlayn qeydiyyatdan çıxarılması |
| **7.18.** | Vergi ödəyicisinin filialının, nümayəndəliyinin onlayn qeydiyyatdan çıxarılması |
| **7.19.** | ƏDV məqsədləri üçün qeydiyyatın onlayn ləğv edilməsi |
| **7.20.** | Nəzarət-kassa aparatının onlayn qeydiyyatı və qeydiyyatdan çıxarılması |
| **7.21.** | POS-terminalın onlayn qeydiyyatı |
| **7.22.** | POS-terminalın onlayn qeydiyyatdan çıxarılması |
| **7.23.** | Fiziki şəxsin fəaliyyətinin onlayn dayandırılması |
| **7.24.** | Hüquqi şəxsin fəaliyyətinin onlayn dayandırılması |
| **7.25.** | Hüquqi şəxsin filialının, nümayəndəliyinin fəaliyyətinin onlayn dayandırılması |
| **7.26.** | Vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) fəaliyyətinin onlayn dayandırılması |

| | |
|---|---|
| **7.27.** | Fiziki şəxsin fəaliyyətinin onlayn bərpası |
| **7.28.** | Hüquqi şəxsin fəaliyyətinin onlayn bərpası |
| **7.29.** | Hüquqi şəxsin filialının, nümayəndəliyinin fəaliyyətinin onlayn bərpası |
| **7.30.** | Vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) fəaliyyətinin onlayn bərpası |
| **7.31.** | Hüquqi şəxsin uçot məlumatlarının onlayn dəyişdirilməsi |
| **7.32.** | Fiziki şəxsin uçot məlumatlarının onlayn dəyişdirilməsi |
| **7.33.** | Hüquqi şəxsin filialının, nümayəndəliyinin uçot məlumatlarının onlayn dəyişdirilməsi |
| **7.34.** | Vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) uçot məlumatlarının onlayn dəyişdirilməsi |
| **7.35.** | Vergilər Nazirliyinə göndərilmiş müraciətlərin, sorğuların və məktubların icrasının müraciət edənlər tərəfindən onlayn izlənilməsi |
| **7.36.** | Satınalmalar üzrə məlumatların onlayn təqdim edilməsi |
| **7.37.** | Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumatın onlayn verilməsi |
| **7.38.** | Vergi orqanı əməkdaşlarının qeyri-etik davranışı barədə məlumatın onlayn verilməsi |
| ***7.39.*** | *Vergilər Nazirliyinin Apellyasiya Şurasına müraciətin təqdim edilməsi* [57] |
13 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 22 iyun 2014-cü il, 131** , **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 747**) ilə "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın 11.4-cü bəndində "**İnformasiya Texnologiyaları**" sözləri "**Yüksək Texnologiyalar**" sözləri ilə əvəz edilmişdir.

21 yanvar 2019-cu il tarixli **15** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 24 yanvar 2019-cu il, 18** , **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 159**) ilə 1 nömrəli əlavə - "Mərkəzi icra hakimiyyəti orqanları və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın 11.4-cü bəndində "**Rabitə və Yüksək Texnologiyalar** " sözləri "**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar** " sözləri ilə əvəz edilmişdir.

[21] 20 oktyabr 2017-ci il tarixli **464** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 22 oktyabr 2017-ci il, 232** , **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 10 , maddə 1926** ) ilə 1 nömrəli əlavə – "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın 1 nömrəli əlavənin yuxarı sağ küncündə "**Mərkəzi icra hakimiyyəti orqanları**" sözlərindən sonra "**və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər** " sözləri əlavə edilmişdir.

-

[22] 20 oktyabr 2017-ci il tarixli **464** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 22 oktyabr 2017-ci il, 232** , **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 10 , maddə 1926** ) ilə 1 nömrəli əlavə – "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın 1 nömrəli əlavənin "**Təsdiq edirəm**" hissəsi çıxarılmışdır.

-

[23] 20 oktyabr 2017-ci il tarixli **464** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 22 oktyabr 2017-ci il, 232** , **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 10 , maddə 1926** ) ilə 1 nömrəli əlavə – "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın 1 nömrəli əlavənin 1.5-ci bəndindən "**orqanlarının və**" sözləri çıxarılmışdır.

-

[24] 28 sentyabr 2017-ci il tarixli **399** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 30 sentyabr 2017-ci il, 213, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 9, maddə 1754**) ilə "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın Nümunəvi formasının 1.8-ci bəndindən "**icazə, xüsusi razılıq (lisenziya)**," sözləri çıxarılmışdır.

[25] 20 oktyabr 2017-ci il tarixli **464** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 22 oktyabr 2017-ci il, 232, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 10, maddə 1926**) ilə 1 nömrəli əlavə – "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın 1 nömrəli əlavənin 2.3-cü, 2.5-ci bəndlərdə, 2.6.1-ci və 2.6.2-ci yarımbəndlərdə ismin müvafiq hallarında "**dövlət orqanları**" sözləri ismin müvafiq hallarında "**dövlət qurumları**" sözləri ilə və 3.4.3-cü yarımbənddə "**dövlət orqanı**" sözləri "**dövlət qurumu**" sözləri ilə əvəz edilmişdir.

[26] 20 sentyabr 2016-cı il tarixli **351** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 22 sentyabr 2016-cı il, 207, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1578**) ilə 1 nömrəli əlavə "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın 1 nömrəli əlavəsinin 2.6-cı bəndinin "Qeydlər"ində "**Elektron xidmət bölməsinə**" sözləri "**Dövlət xidmətləri bölməsinə**" sözləri ilə əvəz edilmişdir.

[27] 20 oktyabr 2017-ci il tarixli **464** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 22 oktyabr 2017-ci il, 232, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 10, maddə 1926**) ilə 1 nömrəli əlavə – "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın 2 nömrəli əlavənin yuxarı sağ küncünə "**Mərkəzi icra hakimiyyəti orqanları**" sözlərindən sonra " **və Azərbaycan Respublikasının Prezidenti tərə-findən yaradılan publik hüquqi şəxslər** " sözləri əlavə edilmişdir.

[28] 20 oktyabr 2017-ci il tarixli **464** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 22 oktyabr 2017-ci il, 232, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 10, maddə 1926**) ilə 1 nömrəli əlavə – "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın 2 nömrəli əlavənin 4-cü hissəsindən "**orqanlarının və**" sözləri çıxarılmışdır.

[29] 26 yanvar 2012-ci il tarixli **17** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 01, maddə 40**) ilə 2 nömrəli əlavə - "Elektron xidmət növlərinin Siyahısı"nın 22.7-ci bəndi əlavə edilmişdir.

26 yanvar 2012-ci il tarixli **17** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 01, maddə 40**) ilə 2 nömrəli əlavə - "Elektron xidmət növlərinin Siyahısı"nın 26.10-cu və 26.11-ci bəndlər ləğv edilmişdir.

2 mart 2012-ci il tarixli **55** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 03, maddə 256**) ilə 2 nömrəli əlavə - "Elektron xidmət növlərinin Siyahısı"nın 29.3-cü bəndi ləğv edilmişdir.

08 dekabr 2011-ci il tarixli **199** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 12, maddə 1247**) ilə "Elektron xidmət növlərinin Siyahısı"nın 31.2-ci bəndi ləğv edilmişdir.

17 oktyabr 2012-ci il tarixli **235** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 20 oktyabr 2012-ci il, 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 10, maddə 1016**) ilə 2 nömrəli əlavə - "Elektron xidmət növlərinin Siyahısı" yeni redaksiyada təsdiq edilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Azərbaycan Respublikası Nazirlər~~
~~Kabinetinin 2011-ci il 24 noyabr~~
~~tarixli 191 nömrəli qərarı ilə~~
~~**təsdiq edilmişdir**~~

~~**2 nömrəli əlavə**~~

~~**Elektron xidmət növlərinin**~~

~~**SİYAHISI**~~

| ~~**Sıra –si**~~ | ~~**Xidmətin adı**~~ |
|---|---|
| ~~**1**~~ | ~~**2**~~ |
| - | ~~**1. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi**~~ |
| ~~1.1.~~ | ~~Ölkələrarası övladlığa götürmə ilə bağlı e-müraciət~~ |
| ~~1.2.~~ | ~~Ölkədaxili övladlığa götürmə ilə bağlı e-müraciət~~ |
| - | ~~**2. Fövqəladə Hallar Nazirliyi**~~ |
| ~~2.1.~~ | ~~Xüsusi razılıqların (lisenziyaların) verilməsi üçün e-müraciət~~ |
| ~~2.2.~~ | ~~Xüsusi icazələrin verilməsi üçün e-müraciət~~ |
| ~~2.3.~~ | ~~Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyində obyektlərin ekspertizasının aparılması üçün e-müraciət~~ |
| ~~2.4.~~ | ~~Kiçik Həcmli Gəmilər üzrə Dövlət Müfəttişliyi tərəfindən gəmilərin dövlət qeydiyyatının aparılması üçün e-müraciət~~ |
| - | ~~**3. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi**~~ |
| ~~3.1.~~ | ~~Dini qurumların dövlət qeydiyyatına alınması üçün e-müraciət~~ |
| ~~3.2.~~ | ~~Dini təyinatlı ədəbiyyatın, əşyaların və dini məzmunlu başqa məlumat materiallarının satışı ilə bağlı ixtisaslaşdırılmış satış məntəqələrinin yaradılması ilə əlaqədar razılığın verilməsi~~ |
| ~~3.3.~~ | ~~Dini ibadət yerlərinin tikintisinin və yenidən qurulmasının məqsədəuyğunluğu barədə rəy verilməsi~~ |
| ~~3.4.~~ | ~~Dini təyinatlı ədəbiyyata rəy verilməsi~~ |
| ~~3.5.~~ | ~~Dini tədris müəssisələrinin fəaliyyətinə xüsusi razılığın (lisenziyanın) verilməsi üçün rəy verilməsi~~ |
| - | ~~**4. Dövlət Qulluğu Məsələləri üzrə Komissiya**~~ |
| ~~4.1.~~ | ~~Dövlət qulluğuna qəbul üzrə e-qeydiyyat~~ |
| ~~4.2.~~ | ~~Müsabiqə və müsahibə nəticələri barədə məlumatların əldə edilməsi~~ |
| ~~4.3.~~ | ~~Dövlət qulluqçularının Reyestrindən məlumatların əldə edilməsi~~ |
| ~~4.4.~~ | ~~Dövlət orqanları tərəfindən ehtiyat kadrlar barədə müvafiq məlumatların əldə edilməsi~~ |
| ~~4.5.~~ | ~~Dövlət qulluğu sahəsində müxtəlif statistik hesabatların təqdim edilməsi~~ |
| ~~4.6.~~ | ~~Dövlət qulluğu stajı kalkulyatoru~~ |

| | |
|---|---|
| 4.7. | Onlayn sınaq test imtahanlarının keçirilməsi |
| - | **5. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** |
| 5.1. | İstehsalatda baş verən bədbəxt hadisə barədə məlumatın verilməsi |
| 5.2. | Peşə hazırlığı və əlavə təhsilə cəlb olunmaq istəyən vətəndaşların e-qeydiyyatı |
| 5.3. | Haqqı ödənilən ictimai işlər barədə məlumatın əldə edilməsi |
| 5.4. | Haqqı ödənilən ictimai işə cəlb olunmaq istəyən vətəndaşların e-qeydiyyatı |
| 5.5. | Peşəyönümü xidməti barədə informasiyanın əldə edilməsi |
| 5.6. | Onlayn peşəyönümünün testləşdirilməsi |
| 5.7. | Dövlət Məşğulluq Xidməti vasitəsilə iş axtarışı |
| 5.8. | Kvota üzrə müəyyən olunmuş vakansiyalar barədə məlumatın əldə edilməsi |
| 5.9. | "Əmək Birja"larına müraciət edən işəgötürənlərin işçi qüvvəsinə olan tələbatı haqqında məlumat əldə edilməsi |
| 5.10. | "Əmək Birja"larına müraciət edən işaxtaran vətəndaşların e-qeydiyyatı |
| 5.11. | Məşğulluq Xidməti Orqanları üzrə e-hesabatların qəbulu |
| 5.12. | İşsizlik müavinətinin hesablanması kalkulyatoru |
| 5.13. | Sosial kalkulyator |
| 5.14. | Ünvanlı Sosial Yardım alınması üçün e-müraciət |
| 5.15. | Dövlət sosial təminat xidmətləri üzrə e-növbə |
| 5.16. | Sosial müdafiə tədbirləri barədə məlumat əldə edilməsi |
| 5.17. | İşsiz statusunun verilməsi, işsizlik müavinətinin təyin edilməsi |
| 5.18. | Əlilliyin təyin edilməsi |
| - | **6. Əmlak Məsələləri Dövlət Komitəsi** |
| 6.1. | Daşınmaz əmlakın dövlət reyestrində olan məlumatlar barədə arayışların verilməsi |
| 6.2. | Daşınmaz əmlak obyektləri barədə kadastr məlumatlarının hazırlanması və kadastr xidmətlərinin göstərilməsi üçün e-müraciət |
| 6.3. | Daşınmaz əmlak obyektlərinə ünvanların verilməsi və ünvan reyestri məlumat bazasından arayışların, ünvan xəritələrindən çıxarışların, digər ünvan məlumatlarının təqdim edilməsi |
| 6.4. | Müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakların e-satışı |
| 6.5. | Dövlət əmlakının qorunub saxlanılması və ondan istifadə vəziyyəti haqqında xüsusi hesabat formasının təqdim edilməsi |
| 6.6. | Daşınmaz əmlaka dair çıxarışların verilməsi üçün müraciətlərin və müvafiq sənədlərin elektron və ya skan edilmiş formatda rəsmi qəbul edilməsi |
| - | **7. Dövlət Gömrük Komitəsi** |
| 7.1. | E-yük gömrük bəyannamələri |
| 7.2. | Mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi üçün e-müraciət |
| 7.3. | E-sərnişin bəyannamələri |
| 7.4. | E-növbə |
| 7.5. | Nəqliyyat operatorlarının e-qeydiyyatı |
| 7.6. | Gömrük Hospitalına e-müraciət |
| 7.7. | Xarici İqtisadi Fəaliyyət iştirakçılarının bəyan etdikləri mal və nəqliyyat vasitələrinin rəsmiləşdirilməsi prosesinin gedişi və idxal-ixrac əməliyyatları haqqında real vaxt rejimində məlumat ala bilməsi üzrə e-müraciət |
| - | **8. Müəllif Hüquqları Agentliyi** |
| 8.1. | Müəllif hüquqlarının e-qeydiyyatı |
| 8.2. | Müəllif və hüquq istifadəçiləri üçün rəqəmsal şəbəkələrdə lisenziyalaşdırma və hüquqların idarə olunması üzrə e-xidmət |
| 8.3. | Pərakəndə satışda yayılan məhsullara, fonoqramlara, audiovizual əsərlərə, verilənlər bazasına, proqram təminatına unikal kodların verilməsi və onların e-qeydiyyatı |
| 8.4. | Müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan mallara xüsusi damğalanmış holoqramların verilməsi |
| 8.5. | Yayılmaq üçün buraxılmış müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan malların dövlət reyestrlərinin, hüquq sahiblərinin kollektivləri və yayım təşkilatları arasında lisenziyaların aparılması və şəhadətnamələrin verilməsi |
| 8.6. | Ticarət şəbəkəsində efirlə və kabellə yayılmasına icazə verilmiş obyektlərin "hüquqlarının tənzimlənməsi" məqsədi ilə e-ekspertizası |
| - | **9. Ədliyyə Nazirliyi** |
| 9.1. | Notariat kontorları və notariat hərəkətlərinin aparılması barədə məlumat əldə edilməsi |
| 9.2. | Aparılmış notariat hərəkətləri barədə məlumatın və onlarla bağlı sənədlərin surətlərinin Dövlət Notariat Arxivindən əldə edilməsi |
| 9.3. | Qeydiyyat orqanları və vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatının aparılması barədə məlumat əldə edilməsi |
| 9.4. | Azərbaycan adları barədə məlumat əldə edilməsi |
| 9.5. | Qeydiyyata alınmış vətəndaşlıq vəziyyəti aktları ilə bağlı sənədlərin əldə edilməsi |
| 9.6. | Qeyri-kommersiya hüquqi şəxslərin və təhsil müəssisələrinin qeydiyyatı proseduru, adları, eləcə də qeydiyyata alınıb-alınmaması barədə məlumat əldə edilməsi |
| 9.7. | Mətbu nəşrlərin uçotu üçün e-müraciət |
| 9.8. | Qeydiyyata alınmış qeyri-kommersiya hüquqi şəxslər və təhsil müəssisələri üçün fərdi e-pəncərə |
| 9.9. | İcra qurumları barədə məlumat əldə edilməsi |
| 9.10. | İcra qurumları tərəfindən hərraca çıxarılan əmlaklar barədə məlumat əldə edilməsi |
| 9.11. | Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrindən məlumat əldə edilməsi |
| 9.12. | Dəyəri 500 manatdan artıq olmayan daşınar əmlakların satışı üzrə ticarət şəbəkələri haqqında məlumat əldə edilməsi |

| | |
|---|---|
| ~~9.13.~~ | ~~Mülki dövriyyə nəticəsində baş verən çoxsaylı hüquqi hadisələrdən yaranan yeni hüquq və vəzifələr barədə fiziki və hüquqi şəxslərin məlumatlandırılması~~ |
| - | **~~10. Daxili İşlər Nazirliyi~~** |
| ~~10.1.~~ | ~~Xidməti və mülki silahın qeydiyyata alınması (qeydiyyatının dəyişdirilməsi) üçün e-müraciət~~ |
| ~~10.2.~~ | ~~Xidməti və mülki silahın alınmasına və saxlanılmasına xüsusi icazənin verilməsi üçün e-müraciət~~ |
| ~~10.3.~~ | ~~Müxtəlif növ möhürlərin və ştampların hazırlanmasına xüsusi razılığın verilməsi üçün e-müraciət~~ |
| ~~10.4.~~ | ~~Qeyri-dövlət (özəl) mühafizə fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsi üçün e-müraciət~~ |
| ~~10.5.~~ | ~~Vətəndaşların şəxsiyyət vəsiqəsinin dəyişdirilməsi üçün e-müraciət~~ |
| ~~10.6.~~ | ~~Ümumvətəndaş pasportlarının dəyişdirilməsi üçün e-müraciət~~ |
| ~~10.7.~~ | ~~Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin şəxsiyyət vəsiqələrinin və ölkə hüdudlarını tərk etmək üçün xüsusi nümunəli pasportlarının dəyişdirilməsi üçün e-müraciət~~ |
| ~~10.8.~~ | ~~Sürücülük vəsiqələrinin verilməsi üçün e-müraciət~~ |
| ~~10.9.~~ | ~~Nəqliyyat vasitələrinə texniki baxışın keçirilməsi üçün e-müraciət~~ |
| ~~10.10.~~ | ~~Yol şəbəkəsinin müəyyən hissələrinə yükdaşıyan nəqliyyat vasitələrinin və avtobusların buraxılması üçün xüsusi buraxılış vərəqələrinin verilməsi~~ |
| ~~10.11.~~ | ~~Daxili işlər orqanlarında xidmətə qəbulla bağlı e-müraciət~~ |
| ~~10.12.~~ | ~~Məhkumluq barədə arayışların verilməsi~~ |
| ~~10.13.~~ | ~~Arxiv arayışlarının verilməsi~~ |
| ~~10.14.~~ | ~~Dövriyyəsi məhdudlaşdırılan narkotik vasitələr, psixotrop maddələr, dövriyyəsinə nəzarət edilən psixotrop maddələr, narkotik vasitələrin və psixotrop maddələrin istehsalında istifadə edilən və dövriyyəsinə nəzarət edilən avadanlığın istifadəsinə xüsusi icazənin verilməsi üçün e-müraciət~~ |
| ~~10.15.~~ | ~~Narkotik vasitələrə və psixotrop maddələrə aid olmayan güclü təsir edən və ya zəhərli maddələr, həmin maddələri hazırlamaq və ya emal etmək üçün avadanlığın dövriyyəsinə xüsusi icazənin verilməsi üçün e-müraciət~~ |
| ~~10.16.~~ | ~~Mülkiyyətçilərin əmlakının mühafizəyə götürülməsi üçün e-müraciət~~ |
| ~~10.17.~~ | ~~İtirilmiş əşyanın tapılmaması barədə arayışların verilməsi~~ |
| ~~10.18.~~ | ~~Yol hərəkəti qaydalarının pozuntusu ilə bağlı görülən tədbirlər barədə məlumat əldə edilməsi~~ |
| ~~10.19.~~ | ~~Nəqliyyat vasitələrinin dövlət qeydiyyatına alınması üçün e-müraciət~~ |
| ~~10.20.~~ | ~~Nəqliyyat vasitələrində reklamın yayılmasına razılığın verilməsi üçün e-müraciət~~ |
| ~~10.21.~~ | ~~Nəqliyyat vasitələrinin avadanlıqla təchiz olunmasına razılığın verilməsi üçün e-müraciət~~ |
| ~~10.22.~~ | ~~Uşaq bağçalarına və yay istirahət düşərgələrinə yollayışların verilməsi üçün e-müraciət~~ |
| ~~10.23.~~ | ~~Sanatoriya tipli "Azərbaycan" istirahət evinə yollayışların verilməsi üçün e-müraciət~~ |
| - | **~~11. Gənclər və İdman Nazirliyi~~** |
| ~~11.1.~~ | ~~Xaricə səfər edən ayrı-ayrı gənclər və idman nümayəndə heyətinə, rəsmilərə viza alınmasına razılıq verilməsi üçün e-müraciət~~ |
| ~~11.2.~~ | ~~Heydər Əliyev Beynəlxalq Hava Limanında Gənclər və İdman Nazirliyinin müraciətinə əsasən viza alınması üçün e-müraciət~~ |
| ~~11.3.~~ | ~~Gənclər və İdman Nazirliyi tərəfindən təşkil edilən beynəlxalq və respublika səviyyəli tədbirlərdə iştirak etmək üçün e-qeydiyyat~~ |
| ~~11.4.~~ | ~~İdman federasiyaları və klubların yaradılması üçün e-müraciət~~ |
| ~~11.5.~~ | ~~İdman təsnifatına uyğun olaraq idman sahəsində fəxri adların alınması üçün e-müraciət~~ |
| ~~11.6.~~ | ~~Gənclər təşkilatlarının layihələrinin maliyyələşdirilməsi ilə bağlı qrant müsabiqəsinə e-müraciət~~ |
| ~~11.7.~~ | ~~Gənclərin beynəlxalq tədbirlərdə iştirakı üçün e-müraciət~~ |
| - | **~~12. Kənd Təsərrüfatı Nazirliyi~~** |
| ~~12.1.~~ | ~~Etil spirti və alkoqollu içkilər, tütün məmulatları, özəl toxumçuluq fəaliyyəti və baytarlıq təbabəti üçün lisenziyaların verilməsi~~ |
| - | **~~13. Xarici İşlər Nazirliyi~~** |
| ~~13.1.~~ | ~~Azərbaycan Respublikasına səfər etmək istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün elektron qaydada verilən vizaların (e-viza) alınması məqsədi ilə e-müraciət~~ |
| ~~13.2.~~ | ~~Jurnalistlərin e-akkreditasiyası~~ |
| ~~13.3.~~ | ~~Xaricdə yaşayan azərbaycanlıların e-müraciəti~~ |
| ~~13.4.~~ | ~~Azərbaycan Respublikasının ərazisində olan Azərbaycan Respublikası vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin e-müraciəti~~ |
| - | **~~14. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi~~** |
| ~~14.1.~~ | ~~Status sənədlərinin verilməsi üçün e-müraciət~~ |
| ~~14.2.~~ | ~~Əraziləri işğal olunmuş rayon icra hakimiyyətləri tərəfindən təsdiq olunan yemək xərci üçün dövlət büdcəsindən verilən aylıq müavinəti alan məcburi köçkünlərin siyahısının təqdim olunması~~ |
| ~~14.3.~~ | ~~Yemək xərci üçün dövlət büdcəsindən verilən aylıq müavinəti alan məcburi köçkünlər barədə məlumat əldə edilməsi~~ |
| ~~14.4.~~ | ~~Kommunal xidmətlərdən istifadə edən məcburi köçkünlər barədə məlumat əldə edilməsi~~ |
| ~~14.5.~~ | ~~Kommunal xidmətlərdən istifadə edən məcburi köçkünlərin müvafiq xidmət təşkilatları və icra hakimiyyəti orqanları tərəfindən təsdiq olunmuş siyahısının təqdim olunması~~ |
| - | **~~15. Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi~~** |
| ~~15.1.~~ | ~~Qiymətli kağızların e-qeydiyyatı~~ |
| ~~15.2.~~ | ~~Xüsusi razılığın (lisenziyanın) verilməsi~~ |
| ~~15.3.~~ | ~~Lotereyanın təşkili və keçirilməsinin e-qeydiyyatı~~ |
| ~~15.4.~~ | ~~Qiymətli kağızlar bazarının iştirakçıları tərəfindən hesabatların təqdim olunması~~ |
| ~~15.5.~~ | ~~Aksiz markalarının əldə edilməsi üçün e-müraciət~~ |
| ~~15.6.~~ | ~~Aksiz markaları üzrə digər e-xidmətlər~~ |
| ~~15.7.~~ | ~~Qiymətli kağızların dövriyyədən çıxarılması~~ |

| | |
|---|---|
| ~~15.8.~~ | ~~Emitentlərin adlarının dəyişməsi ilə əlaqədar qiymətli kağızların dövlət reyestrində dəyişikliklərin edilməsi~~ |
| ~~15.9.~~ | ~~Qiymətli kağızların girovda olub-olmaması barədə arayışların verilməsi~~ |
| ~~15.10.~~ | ~~Qiymətli kağızlarla girova xitam~~ |
| ~~15.11.~~ | ~~Qiymətli kağızlar bazarı iştirakçılarının attestasiyadan keçirilməsi~~ |
| - | ~~**16. Mədəniyyət və Turizm Nazirliyi**~~ |
| ~~16.1.~~ | ~~Arxiv arayışlarının, arxiv sənədlərindən çıxarışların, arxiv sənədlərinin surətlərinin verilməsi~~ |
| ~~16.2.~~ | ~~Vətəndaşlar, hüquqi və fiziki şəxslər tərəfindən respublikadan kənara çıxarılması, həmçinin qaytarılması barədə müraciət olunan mədəni sərvətlərə icazələrin verilməsi~~ |
| ~~16.3.~~ | ~~Mədəni və tarixi sərvətlərin respublikadan kənara çıxarılmasına icazələrin verilməsi~~ |
| ~~16.4.~~ | ~~Respublika ərazisindən kənara çıxarılan, müvəqqəti çıxarılan və qaytarılan mədəni sərvətlərin e-qeydiyyatı~~ |
| ~~16.5.~~ | ~~Vətəndaşların və hüquqi şəxslərin respublika ərazisində turizm xidməti sahəsində investisiya ilə bağlı layihələrin təqdim olunması~~ |
| ~~16.6.~~ | ~~Mədəniyyət və turizm üzrə dövlət investisiya layihələrinin və təsdiq olunmuş investisiya proqramlarının təqdim olunması~~ |
| ~~16.7.~~ | ~~Turizm fəaliyyəti ilə məşğul olan şirkətlərin və turistlərin səfərləri təşkil olunduğu ölkələrdə (yerlərdə) problemlər barədə e-müraciət~~ |
| ~~16.8.~~ | ~~Turizm fəaliyyəti ilə məşğul olan obyektlərdə və ölkə ərazisində əcnəbi turistlərin səfərlərinin təşkil olunduğu digər yerlərdəki problemlər barədə e-müraciət~~ |
| ~~16.9.~~ | ~~Turizm, mehmanxana, mehmanxana tipli obyektlərə və turizm işləri üzrə fəaliyyətlə məşğul olmaq istəyən hüquqi və fiziki şəxslər üçün icazələrin, lisenziyaların verilməsi~~ |
| ~~16.10.~~ | ~~Bərpa işləri üzrə fəaliyyətlə məşğul olmaq üçün icazələrin verilməsi~~ |
| ~~16.11.~~ | ~~Təşkilatlara (hüquqi şəxs) və fərdi sahibkarlara ölkə əhəmiyyətli mədəni irs abidələrinin (tarix və mədəniyyət abidələrinin) bərpası üzrə işlərin yerinə yetirilməsi üçün icazələrin verilməsi~~ |
| ~~16.12.~~ | ~~Təşkilatlara (hüquqi şəxs) arxeoloji qazıntı işlərinin aparılması üçün xüsusi icazələrin verilməsi~~ |
| ~~16.13.~~ | ~~Filmlərin dövlət reyestrində qeydə alınması üçün sənədlərin təqdim edilməsi və ölkə ərazisində nümayiş üçün icazələrin verilməsi~~ |
| ~~16.14.~~ | ~~Kino üzrə ekspert şuralarına və ssenari müsabiqələrinin münsiflər heyətinə sinopsis və ssenarilərin təqdim edilməsi~~ |
| ~~16.15.~~ | ~~Şəhər, rayon mərkəzləşdirilmiş kitabxana və muzey sistemlərinin hesabatlarının təqdim edilməsi~~ |
| ~~16.16.~~ | ~~Dövlət kitabxana və muzey fondunda saxlanılan biblioqrafiya məlumatlarının əldə edilməsi~~ |
| ~~16.17.~~ | ~~Dövlət kitabxana və muzey fondunda saxlanılan və müəllif hüquqları ilə qorunmayan məlumatların əldə edilməsi~~ |
| ~~16.18.~~ | ~~E-bilet~~ |
| - | ~~**17. Nəqliyyat Nazirliyi**~~ |
| ~~17.1.~~ | ~~Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarının lisenziyalaşdırılması üçün e-müraciət~~ |
| ~~17.2.~~ | ~~Rəqəmsal taxoqraf kartlarının verilməsi üçün e-müraciət~~ |
| ~~17.3.~~ | ~~E-bilet~~ |
| ~~17.4.~~ | ~~Azərbaycan Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkət etməsinə xüsusi icazə verilməsi~~ |
| ~~17.5.~~ | ~~Nəqliyyat Nazirliyinin mülkiyyətində olan ümumi istifadə edilən avtomobil yollarında müvafiq işlərin görülməsi üçün texniki şərtin verilməsi~~ |
| - | ~~**18. Dövlət Mülki Aviasiya Administrasiyası**~~ |
| ~~18.1.~~ | ~~Azərbaycan Respublikasından və ya Azərbaycan Respublikasına uçuşların yerinə yetirilməsi üçün icazələrin verilməsi~~ |
| ~~18.2.~~ | ~~Hava nəqliyyatı ilə sərnişin və yük daşımalarının həyata keçirilməsi üçün xüsusi razılığın (lisenziya) verilməsi~~ |
| ~~18.3.~~ | ~~Hava nəqliyyatında sərnişin daşımalarının satışı və bronlaşdırılması üzrə fəaliyyət göstərən agentliklərə sertifikatların verilməsi~~ |
| ~~18.4.~~ | ~~Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İxrac nəzarəti haqqında" 2005-ci il 15 dekabr tarixli 230 nömrəli qərarına əsasən ixrac nəzarətinə düşən mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) üzrə xüsusi icazələrin verilməsi~~ |
| - | ~~**19. Dövlət Dəniz Administrasiyası**~~ |
| ~~19.1.~~ | ~~Dənizçinin şəxsiyyət sənədinin və Dənizçinin Qeyd Kitabçasının verilməsi~~ |
| ~~19.2.~~ | ~~Dənizçilərə sertifikatların (diplomların) verilməsi~~ |
| ~~19.3.~~ | ~~Sertifikatın (diplomun) Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası tərəfindən tanınması haqqında təsdiqnamənin verilməsi~~ |
| ~~19.4.~~ | ~~Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququ haqqında şəhadətnamənin verilməsi~~ |
| ~~19.5.~~ | ~~Gəmiyə mülkiyyət hüququ haqqında şəhadətnamənin verilməsi~~ |
| - | ~~**20. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi**~~ |
| ~~20.1.~~ | ~~Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi üçün e-müraciət~~ |
| ~~20.2.~~ | ~~Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsi üçün xüsusi icazə verilməsi üçün e-müraciət~~ |
| ~~20.3.~~ | ~~İxrac nəzarətinə düşən mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) üzrə xüsusi icazə verilməsi üçün e-müraciət~~ |
| ~~20.4.~~ | ~~Nömrə resurslarının ayrılması üçün e-müraciət~~ |
| ~~20.5.~~ | ~~Təsisçisi və ya redaksiyasının daimi yeri Azərbaycan Respublikasının hüdudlarından kənarda olan xarici dövri mətbu nəşrlərin Azərbaycan Respublikasında yayılmasına razılıq verilməsi üçün e-müraciət~~ |
| ~~20.6.~~ | ~~Telefon çəkilişi, nömrənin dəyişdirilməsi və ada keçirilməsi~~ |
| ~~20.7.~~ | ~~Telefon servis xidmətlərinə qoşulma~~ |
| ~~20.8.~~ | ~~İnternet xidmətlərinə qoşulma~~ |
| ~~20.9.~~ | ~~Telekommunikasiya vasitələri və qurğularına uyğunluq sertifikatının verilməsi üçün e-müraciət~~ |

| | |
|---|---|
| 20.10. | Radiorabitə vasitələrinin qeydiyyatı üçün e-müraciət |
| 20.11. | Rabitə xidmət haqlarının internet vasitəsilə ödənilməsi |
| 20.12. | Telefon danışıqları və kommunal xidmətlər üzrə borcların internet vasitəsilə öyrənilməsi |
| 20.13. | Şəhərlərarası və beynəlxalq danışıq qəbzləri (danışıqların açıqlamaları) barədə məlumat əldə edilməsi |
| 20.14. | Soyad və ad üzrə telefon nömrəsinin internet vasitəsilə öyrənilməsi |
| 20.15. | Poçt göndərişlərin izlənilməsi |
| 20.16. | Dövri mətbuata internet-abunə |
| 20.17. | E-imzanın verilməsi üçün e-müraciət |
| - | **21. Səhiyyə Nazirliyi** |
| 21.1. | Vətəndaşların elektron sağlamlıq kartındakı məlumatlarının əldə edilməsi |
| 21.2. | Dövlət tərəfindən dərman vasitələri ilə təmin olunan xəstələrin şəxsi məlumatları, hansı dispanserdə qeydiyyatda olması və aldığı dərmanlar barədə məlumatların əldə edilməsi |
| 21.3. | Obliqat qruplara aid vətəndaşların müayinələrdən keçmələri barədə məlumat əldə edilməsi |
| 21.4. | Müəssisə rəhbərləri tərəfindən obliqat qrupuna daxil olan işçiləri barədə məlumat əldə edilməsi |
| 21.5. | Tibb müəssisələr barədə elektron məlumat soraqçası |
| 21.6. | Tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmaq üçün xüsusi razılığın (lisenziya) verilməsi üçün e-müraciət |
| 21.7. | Səhiyyə Nazirliyinin tabeliyində olan tibb müəssisələrində işə qəbulla bağlı keçiriləcək müsabiqələrdə iştirak etmək üçün e-müraciət |
| 21.8. | Dərman vasitələri haqqında məlumat əldə edilməsi |
| 21.9. | İmmunoprofilaktika üzrə məlumat təqdim edilməsi |
| 21.10. | Ambulator tibb müəssisələrindən evə çağırış və ya həkim qəbuluna e-qeydiyyat |
| - | **22. Sənaye və Energetika Nazirliyi** |
| 22.1. | Elektrik qurğularının istismara buraxılması zamanı zəruri olan sənədlər barədə məlumat əldə edilməsi |
| 22.2. | Neft məhsullarının satışına xüsusi razılıq (lisenziya) verilməsi |
| 22.3. | Qaz məhsullarının satışına xüsusi razılıq (lisenziya) verilməsi |
| 22.4. | İxrac nəzarətinə düşən və Sənaye və Energetika Nazirliyinin səlahiyyətinə aid olan malların (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) ixracı, idxalı, təkrar ixracı, təkrar idxalı və tranziti üçün xüsusi icazənin verilməsi |
| 22.5. | Qiymətli daşların hasilatı, qızılın və digər qiymətli metalların, neftin, neft məhsullarının və təbii qazın hasilatı və emalı, neft və neft məhsulları tullantılarının emalı vasitələrinin dövriyyəsinə dair xüsusi icazənin verilməsi |
| 22.6. | İxrac məqsədli neft-qaz fəaliyyəti üçün podratçılara və subpodratçılara xüsusi iqtisadi rejimin tətbiqi haqqında Şəhadətnamə verilməsi |
| 22.7. | Alternativ və bərpa olunan enerji mənbələri üzrə fəaliyyətə xüsusi icazənin verilməsi |
| - | **23. Dövlət Şəhərsalma və Arxitektura Komitəsi** |
| 23.1. | Dövlət standartlarına uyğun olaraq I və II səviyyəli bina və qurğuların layihələndirilməsi fəaliyyəti ilə məşğul olmaq üçün hüquqi və fiziki şəxslərə xüsusi razılıq (lisenziya) verilməsi |
| - | **24. İqtisadi İnkişaf Nazirliyi** |
| 24.1. | Malın mənşə ölkəsinin müəyyən edilməsi üzrə ekspertizanın keçirilməsi və nəticələrini təsdiq edən mənşə sertifikatının verilməsi |
| 24.2. | Azərbaycan Respublikasından Avropa İttifaqı ölkələrinə ixrac olunan yeyinti məhsullarına keyfiyyət sertifikatının verilməsi |
| 24.3. | Kommersiya hüquqi şəxslərə münasibətdə qrant müqavilələrinin e-qeydiyyatı |
| 24.4. | Əmtəə birjası fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsi |
| 24.5. | Əlvan metal, tərkibində qiymətli metallar və daşlar olan sənaye və istehsalat tullantılarının tədarükü, emalı və satışı fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsi |
| - | **25. Dövlət Sosial Müdafiə Fondu** |
| 25.1. | Məcburi dövlət sosial sığortası üzrə hesabatların və məlumatların təqdim olunması |
| 25.2. | Sığortaedənin və sığortaolunanın uçotuna dair e-müraciət |
| 25.3. | Məcburi dövlət sosial sığortası hesabına verilən müavinətlər üzrə haqq-hesab cədvəllərin təqdim olunması |
| 25.4. | Məcburi dövlət sosial sığortası üzrə səyyar yoxlamanın keçirilməsi haqqında qərarın, bildirişlərin, xəbərdarlıqların və tələbnamənin göndərilməsi |
| 25.5. | Sığortaolunanlar tərəfindən məlumatların əldə edilməsi |
| 25.6. | Pensiya təyinatı və pensiya növünün dəyişdirilməsi üçün e-müraciət |
| 25.7. | Pensiyaçı tərəfindən məlumatların əldə edilməsi |
| 25.8. | Bank və ya digər kredit təşkilatı üçün e-xidmətlər |
| - | **26. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi** |
| 26.1. | E-sertifikat |
| 26.2. | E-attestat |
| 26.3. | İxtira, faydalı model və sənaye nümunəsi barəsində məlumat axtarışı aparılması üçün vəsatət verilməsi |
| 26.4. | Apellyasiya şurasına (komissiyasına) etiraz verilməsi |
| 26.5. | Əmtəə nişanının və ya coğrafi göstəricinin qeydə alınması barədə sənədin verilməsi |
| 26.6. | Əmtəə nişanına dair ilkinliyin istənilməsi ilə bağlı müraciətlərin qəbulu |
| 26.7. | E-şəhadətnamə |
| 26.8. | İxtiranın, faydalı modelin, sənaye nümunəsinin, əmtəə nişanının və coğrafi göstəricinin reyestr məlumatlarından çıxarış verilməsi |
| 26.9. | Lisenziya müqavilələrinin e-qeydiyyatı |
| 26.10. | Xidməti silahın əldə edilməsinə icazənin verilməsi |
| 26.11. | Alternativ və bərpa olunan enerji mənbələri üzrə fəaliyyətə xüsusi icazənin verilməsi |
| 26.12. | E-patent |
| 26.13. | Əmtəə nişanına dair hüquqların verilməsi barədə müqavilələrin e-qeydiyyatı |

| | |
|---|---|
| - | **27. Dövlət Statistika Komitəsi** |
| 27.1. | Statistik hesabatların təqdim edilməsi |
| 27.2. | Statistik məlumatların buraxılış təqviminin təqdim edilməsi |
| 27.3. | Mətbu məlumatların yayım təqviminin təqdim edilməsi |
| 27.4. | Statistik məlumatların (göstəricilərin) əldə edilməsi |
| 27.5. | Statistik nəşrlərin (kitabların) əldə edilməsi |
| - | **28. Ekologiya və Təbii Sərvətlər Nazirliyi** |
| 28.1. | Ətraf mühitin qorunması ilə əlaqədar razılıq (lisenziya) və icazələrin verilməsi |
| 28.2. | ETSN-nin səlahiyyətlərinə aid edilmiş mal və materialların idxalına və ixracına razılığın verilməsi |
| 28.3. | Milli Parklara e-bilet satışı |
| 28.4. | Meşə məhsulları və dərman bitkilərinin e-satışı |
| - | **29. Təhsil Nazirliyi** |
| 29.1. | Respublikada fəaliyyət göstərən bütün növ təhsil müəssisələri haqqında məlumat əldə edilməsi |
| 29.2. | Respublikada fəaliyyət göstərən bütün növ təhsil müəssisələrinə qəbul qaydaları haqqında məlumat əldə edilməsi |
| 29.3. | Məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulu üçün e-ərizələrin qəbulu |
| 29.4. | Tam və ümumi orta təhsil məktəblərinə şagirdlərin qəbulu üçün e-ərizələrin qəbulu |
| 29.5. | Şagirdlərin təhsildə qazandıqları cari nailiyyətləri əks etdirən məlumatların əldə edilməsi |
| 29.6. | Ümumtəhsil məktəblərində şagird nailiyyətlərinin məktəbdaxili, milli və beynəlxalq qiymətləndirilməsi barədə məlumatların əldə edilməsi |
| 29.7. | Tam və ümumi orta təhsil pilləsi üzrə sınaq və yekun buraxılış imtahanların nəticələri barədə məlumat əldə edilməsi |
| 29.8. | Ümumi təhsil müəssisələrinə müəllimlərin işə qəbulu üçün e-ərizələrin qəbulu və imtahan nəticələri haqqında məlumatların əldə edilməsi |
| 29.9. | "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" üzrə e-müraciət |
| 29.10. | Təhsil müəssisələrində təhsil alanların təhsil müəssisələrini dəyişmək qaydaları barədə məlumat əldə edilməsi |
| 29.11. | De-institutlaşma və uşaqların müdafiəsi barədə məlumat əldə edilməsi |
| - | **30. Tələbə Qəbulu üzrə Dövlət Komissiyası** |
| 30.1. | Namizədlərin e-ərizələrinin e-imzanın tətbiqi ilə təqdim edilməsi |
| 30.2. | Əcnəbilərin və vətəndaşlığı olmayan namizədlərin e-ərizələrin təqdim edilməsi |
| - | **31. Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi** |
| 31.1. | Xəritəçəkmə fəaliyyəti üzrə xüsusi razılıq (lisenziya) verilməsi |
| 31.2. | Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamələrə və torpağa mülkiyyət hüququna dair dövlət aktlarına dublikatların verilməsi |
| 31.3. | Torpaq kadastr məlumatları barədə arayışların verilməsi |
| 31.4. | Torpaq kadastr məlumatlarının hazırlanması və kadastr xidmətlərinin göstərilməsi üçün e-müraciət |
| 31.5. | Geodeziya, qravimetriya, fotoqrammetriya, topoqrafiya, mühəndis-geodeziya işləri |
| 31.6. | Müxtəlif təyinatlı xəritə və atlasların tərtibatı və nəşri |
| 31.7. | Yerquruluşu işləri, torpaq tədqiqatı, geobotaniki tədqiqatların aparılması, bonitirovka xəritələrinin hazırlanması |
| 31.8. | Torpaq kadastr xəritələrinin, CİS xəritələrin tərtibi |
| 31.9. | Ərazi vahidlərinin və inzibati ərazi dairələrinin xəritələrinin hazırlanması |
| 31.10. | Bələdiyyələrin xəritələrinin hazırlanması |
| - | **32. Vergilər Nazirliyi** |
| 32.1. | E-bəyannamə |
| 32.2. | E-vergi hesab fakturası |
| 32.3. | Vahid depozit hesabı vasitəsilə ƏDV üzrə elektron ödənişlərin və əvəzləşmələrin aparılması |
| 32.4. | Fərdi sahibkarların e-qeydiyyatı |
| 32.5. | ƏDV məqsədləri üçün e-qeydiyyat |
| 32.6. | Bank idarələrində hesabların açılması |
| 32.7. | Vergi kalkulyatoru |
| 32.8. | Bəyannamələrin vergi orqanları tərəfindən hazırlanması və təsdiq üçün vergi ödəyicilərinə göndərilməsi |
| 32.9. | Vergi ödəyicisinin, təsərrüfat subyektlərinin, nəzarət-kassa aparatlarının uçotu və fəaliyyəti barədə e-ərizələrin təqdim edilməsi |
| 32.10. | Vergi bəyannamələrinin, hesabat və arayışların vergi orqanına təqdim edilməsi |
| 32.11. | Vergi ödəyicilərinin müraciətlərinin SMS vasitəsilə cavablandırılması |
| 32.12. | Vergi və rüsumların internet vasitəsilə ödənilməsi |
| 32.13. | Vergi borcu barədə arayışların, üzləşdirmə aktlarının, şəxsi hesab vərəqəsindən çıxarışların təqdim edilməsi |
| 32.14. | Kommersiya hüquqi şəxslərin e-qeydiyyatı |
| 32.15. | İstehsal fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri barədə məlumatların əldə edilməsi |
| 32.16. | Vergi uçotuna alınmış fiziki şəxslər barədə məlumatların əldə edilməsi |
| 32.17. | Kommersiya qurumlarının dövlət reyestri məlumatlarının əldə edilməsi |
| 32.18. | ƏDV ödəyiciləri barədə məlumatların əldə edilməsi |
| 32.19. | Kommersiya hüquqi şəxsin adının unikallığının yoxlanılması |
| - | **33. Dövlət Miqrasiya Xidməti** |
| 33.1. | Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması üçün e-müraciət |
| 33.2. | Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin alınması üçün e-müraciət |
| 33.3. | Azərbaycan Respublikasında daimi yaşamaq məqsədi ilə (immiqrant statusu almaq üçün) icazənin alınması üçün e-müraciət |
| 33.4. | Əcnəbinin Azərbaycan Respublikası ərazisində haqqı ödənilən əmək fəaliyyətini həyata keçirməsi məqsədi ilə fərdi icazənin alınması üçün e-müraciət |

| | |
|---|---|
| ~~33.5.~~ | ~~Əcnəbinin Azərbaycan Respublikası ərazisində haqqı ödənilən əmək fəaliyyətini həyata keçirməsi məqsədi ilə fərdi icazənin müddətinin uzadılması üçün e-müraciət~~ |
| ~~33.6.~~ | ~~Azərbaycan Respublikası vətəndaşlığının əldə edilməsi üçün e-müraciət~~ |
| ~~33.7.~~ | ~~Azərbaycan Respublikası vətəndaşlığının bərpa edilməsi üçün e-müraciət~~ |
| ~~33.8.~~ | ~~Azərbaycan Respublikası vətəndaşlığından çıxma ilə bağlı e-müraciət~~ |
| ~~33.9.~~ | ~~Miqrasiya orqanlarında qulluğa qəbul olunma ilə bağlı e-müraciət~~ |
| ~~33.10.~~ | ~~Cərimələrin internet vasitəsilə ödənilməsi~~ |
| - | **~~34. Müdafiə Sənayesi Nazirliyi~~** |
| ~~34.1.~~ | ~~E-müraciət~~ |
| - | **~~35. Diasporla İş üzrə Dövlət Komitəsi~~** |
| ~~35.1.~~ | ~~Xaricdə yaşayan azərbaycanlıların e-müraciəti~~ |
| - | **~~36. Milli Arxiv İdarəsi~~** |
| ~~36.1.~~ | ~~E-müraciət~~ |
| - | **~~37. Dövlət Sərhəd Xidməti~~** |
| ~~37.1.~~ | ~~Dövlət Sərhəd Xidmətinə qəbulla bağlı e-müraciət~~ |
| ~~37.2.~~ | ~~Dövlət Sərhəd Xidmətinin Akademiyası qəbulla bağlı e-müraciət~~ |
| - | **~~38. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti~~** |
| ~~38.1.~~ | ~~E-müraciət~~ |
| - | **~~39. Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti~~** |
| ~~39.1.~~ | ~~Su təsərrüfatı obyektlərindən suyun götürülməsinə razılıq verilməsi üçün e-müraciət~~ |
| ~~39.2.~~ | ~~Su təsərrüfatı obyektlərində və onların mühafizə zonalarında yaradılan obyektlərin yerinin razılaşdırılması üçün e-müraciət~~ |
| - | **~~40. "Azərsu" Açıq Səhmdar Cəmiyyəti~~** |
| ~~40.1.~~ | ~~Su borcunun internet vasitəsilə öyrənilməsi~~ |
| ~~40.2.~~ | ~~Su borcunun internet vasitəsilə ödənilməsi~~ |
| ~~40.3.~~ | ~~Su borcunun terminallar vasitəsilə ödənilməsi~~ |
| - | **~~41. "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti~~** |
| ~~41.1.~~ | ~~Enerji haqlarının internet vasitəsilə ödənilməsi~~ |
| ~~41.2.~~ | ~~Tələbatçı obyektlərin elektrik təchizatına dair texniki şərtlərin verilməsi~~ |

[30] 24 oktyabr 2018-ci il tarixli **463** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 26 oktyabr 2018-ci il, 241, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 10, maddə 2177)** ilə “Elektron xidmət növlərinin Siyahısı”nın 1.3-cü bəndi ləğv edilmişdir.

[31] 28 sentyabr 2017-ci il tarixli **399** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 30 sentyabr 2017-ci il, 213, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 9, maddə 1754)** ilə “Elektron xidmət növlərinin Siyahısı”nın 2.2-ci, 2.17-ci, 2.18-ci, 8.3-cü, 11.4-cü, 11.5-ci, 15.2-ci (hər iki halda), 15.3-cü, 16.4-cü və 18.1-ci bəndlərində ismin müvafiq hallarında “**xüsusi icazə**” sözləri “**icazə**” sözü ilə əvəz edilmişdir.

[32] 28 sentyabr 2017-ci il tarixli **399** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 30 sentyabr 2017-ci il, 213, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 9, maddə 1754)** ilə “Elektron xidmət növlərinin Siyahısı”nın 2.3-cü, 4.1-ci bəndləri, 5-ci hissəsi, 6.4-cü, 6.5-ci, 8.1-ci, 8.2-ci, 9.12-ci, 10.1-10.4-cü, 11.2-ci, 11.3-cü, 12.6-cı, 13.4-cü, 14.5-ci, 14.17-ci, 16.1-ci bəndləri, 20-ci hissəsi, 27.5-ci bəndi, 36-1-ci hissəsi, 38.2-ci və 39.6-cı bəndləri ləğv edilmişdir.

[33] 28 sentyabr 2017-ci il tarixli **399** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 30 sentyabr 2017-ci il, 213, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 9, maddə 1754)** ilə “Elektron xidmət növlərinin Siyahısı”nın 2.4-cü bəndində “**Qeyri-dövlət (özəl)**” sözləri “**Özəl**” sözü ilə və həmin bənddə “**xüsusi razılıq (lisenziya)**” sözləri “**lisenziya**” sözü ilə əvəz edilmişdir.

[34] 13 iyul 2017-ci il tarixli **287** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 14 iyul 2017-ci il, 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7, maddə 1484**) ilə “Elektron xidmət növlərinin Siyahısı”nın 2.8-ci bəndinə “**qaydaları**” sözündən sonra “**və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi qaydaları**” sözləri əlavə edilmişdir.

[35] 11 noyabr 2014-cü il tarixli **365** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 14 noyabr 2014-cü il, 248; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1506)** ilə “Elektron xidmət növlərinin Siyahısı”na 2.25-ci və 2.26-cı bəndlər əlavə edilmişdir.

[36] 16 dekabr 2016-cı il tarixli **514** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 18 dekabr 2016-cı il, 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2233)** ilə “Elektron xidmət növlərinin Siyahısı”nın 3-cü hissəsinin 3.5-ci bəndindən “**və təhsil müəssisələrinin**” sözləri çıxarılmışdır.

[37] 16 dekabr 2016-cı il tarixli **514** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 18 dekabr 2016-cı il, 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2233)** ilə “Elektron xidmət növlərinin Siyahısı”nın 3-cü hissəsinin 3.7-ci bəndindən “**və təhsil müəssisələri**” sözləri çıxarılmışdır.

[38] 27 aprel 2015-ci il tarixli **120** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 17 may 2015-ci il, 104, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 5, maddə 609)** ilə “Elektron xidmət növlərinin Siyahısı”nın 3.9-cu bənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

| | |
|---|---|
| **~~3.9.~~** | ~~Doğum, ölüm, nikah, nikahın pozulması, övladlığa götürmə və atalığı müəyyən etmək haqqında vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu~~ |

[39] 27 aprel 2015-ci il tarixli **120** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 17 may 2015-ci il, 104, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 5, maddə 609**) ilə "Elektron xidmət növlərinin Siyahısı"na yeni məzmunda 3.9-1 - 3.9-6-cı bəndlər əlavə edilmişdir.

[40] 28 mart 2019-cu il tarixli **132** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 31 mart 2019-cu il, 68 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 565**) ilə "Elektron xidmət növlərinin Siyahısı"nın 3.10-cu bəndində "**kontorları**" sözü "**ofisləri**" sözü ilə əvəz edilmişdir.

[41] 10 aprel 2017-ci il tarixli **137** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 12 aprel 2017-ci il, 75, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 4, maddə 624**) ilə "Elektron xidmət növlərinin Siyahısı"nın 3.11-ci bəndində "**500**" rəqəmi "**5000**" rəqəmi ilə əvəz edilmişdir.

[42] 12 aprel 2019-cu il tarixli **169** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 17 aprel 2019-cu il, 82 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 763** ) ilə "Elektron xidmət növlərinin Siyahısı"nın 3.14-cü bəndinə "**daimi yaşayan**" sözlərindən sonra "**və ya qaçqın statusu almış** " sözləri əlavə edilmişdir.

[43] 19 mart 2014-cü il tarixli **86** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 1 aprel 2014-cü il, 63, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 03, maddə 317**) ilə "Elektron xidmət növlərinin Siyahısı"na yeni məzmunda 3.18-ci bənd əlavə edilmişdir.

16 dekabr 2016-cı il tarixli **514** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 18 dekabr 2016-cı il, 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2233**) ilə "Elektron xidmət növlərinin Siyahısı"nın 3-cü hissəsinin 3.18-ci bəndindən "**və təhsil müəssisələrinin**" və "**və təhsil müəssisəsinin**" sözləri çıxarılmışdır.

[44] 27 aprel 2015-ci il tarixli **120** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 17 may 2015-ci il, 104, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 5, maddə 609**) ilə "Elektron xidmət növlərinin Siyahısı"na yeni məzmunda 3.19-cu bənd əlavə edilmişdir.

[45] 20 oktyabr 2017-ci il tarixli **468** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 24 oktyabr 2017-ci il, 233 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 10 , maddə 1930**) ilə 2 nömrəli əlavə - "Elektron xidmət növlərinin Siyahısı"na yeni məzmunda 3.20-3.25-ci bəndlər əlavə edilmişdir.

